**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**XƏZƏR UNİVERSİTETİ**

---

TƏBİƏT ELMLƏRİ, SƏNƏT VƏ TEXNOLOGİYA YÜKSƏK TƏHSİL FAKÜLTƏSİ

İstiqamətin şifri və adı 060209-Psixologiya

İxtisaslaşmanın adı Ümumi psixologiya

Psixologiya kafedrasının magistrantı
Cəbiyeva Ləman İlqar qızının
Magist dərəcəsini almaq üçün

# Cizgi filmlərindəki ideya və motivlərin uşaqlar tərəfindən qavranılmasının və onlara təsir effektlərinin psixoloji analizi mövzusunda

**DİSSERTASİYA İŞİ**

Elmi rəhbər: Psixologiya üzrə fəlsəfə doktoru, dosent
Lalə Cabbarova

**Bakı-2022**

# MÜNDƏRİCAT


| | | |
|---|---|---|
| | GİRİŞ ..................................................................................... | 5 |
| I FƏSİL. | CİZGİ FİLMLƏRİNİN UŞAQLARA TƏSİRİNİN ELMİ-NƏZƏRİ MƏSƏLƏLƏRİ................................................................... | 9 |
| 1.1. | Cizgi filmlərinin yaranması və təşəkkül xüsusiyyətləri.................. | 9 |
| 1.2. | Cizgi filmlərində psixoloji təsir effektləri. .................................... | 13 |
| 1.3. | Cizgi filmlərinin uşaqlara psixoloji təsir istiqamətləri..................... | 22 |
| 1.3.1. | Müsbət təsirlər............................................................................. | 25 |
| 1.3.2. | Mənfi təsirlər................................................................................ | 26 |
| 1.4. | Cizgi filmlərinin psixikaya təsiri ilə bağlı tədqiqatların təhlili......... | 30 |
| II FƏSİL. | CİZGİ FİLMLƏRİNİN MƏZMUN XARAKTERİSTİKASI VƏ PERSONAJLARIN UŞAQLAR TƏRƏFİNDƏN QAVRANILMASININ PSİXOLOJİ TƏHLİLİ............................ | 37 |
| 2.1. | Media məhsullarının uşaqlar tərəfindən qavranılmasının spesifik xüsusiyyətləri.............................................................................. | 37 |
| 2.2. | Müasir cizgi filmlərinin məzmun və süjet xəttinin səciyyəvi xüsusiyyətləri.............................................................................. | 39 |
| 2.3. | Cizgi film personajlarının xarakteristikası...................................... | 44 |
| 2.4. | Azərbaycan və xarici cizgi filmlərindəki ideya və motivlərin psixoloji təhlili............................................................................. | 49 |
| 2.5. | Cizgi filmlərinin mənfi təsirlərinin aradan qaldırılması yolları (profilaktika, tövsiyələr) ................................................................ | 66 |
| III FƏSİL. | MƏKTƏBƏQƏDƏR VƏ KİÇİK MƏKTƏBLİ YAŞ DÖVRÜNDƏ OLAN UŞAQLARIN CİZGİ FİLM SÜJETLƏRİNİ QAVRAMASININ EKSPERİMENTAL TƏDQİQİ...................... | 70 |
| 3.1. | Tədqiqatın təşkili və keçirilməsi................................................... | 70 |
| 3.1.1. | Tədqiqat iştirakçıları..................................................................... | 70 |
| 3.1.2. | Tədqiqatda istifadə olunmuş metodlar............................................ | 70 |
| 3.1.3. | Tədqiqatın strukturu..................................................................... | 71 |
| 3.1.4. | Tədqiqatın statistik təhlili.............................................................. | 73 |
| | NƏTİCƏ......................................................................................... | 81 |
| | İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SIYAHISI........................... | 82 |

# CİZGİ FİLMLƏRİNDƏKİ İDEYA VƏ MOTİVLƏRİN UŞAQLAR TƏRƏFİNDƏN QAVRANILMASININ VƏ ONLARA TƏSİR EFFEKTLƏRİNİN PSİXOLOJİ ANALİZİ


## XÜLASƏ

**Tədqiqatın aktuallığı: Cizgi filmlərinin hədəf auditoriyası adətən uşaqlar olur. Bəziləri iddia edirlər ki, cizgi filmləri uşaqları əyləndirir və onları yeni dünyalara məruz qoyur və onlara müxtəlif şeylər öyrənmək üçün dünyanı gəzmək və öz mühitlərində heç vaxt qarşılaşa bilməyəcəkləri ideyalarla tanış olmaq imkanı verir. Digərləri isə iddia edirlər ki, uşaqlar valideynlərin istəmədiyi şeyləri cizgi filmlərindən öyrənə bilərlər və buna görə də cizgi filmləri onlara mənfi təsir göstərir. Ümumilikdə cizgi filmlərinin müsbət və yaxud mənfi təsirləri birtərəfli deyil, uşaq şəxsiyyətinin formalaşmasında birbaşa rola malik ailə, ətraf mühit, sosializasiya və tərbiyə proseslərinin kontekstindən nəzərdən keçirilməlidir. Lakin təsirin xarakterinin, onun hansı səviyyədə olmasının müəyyən edilməsi uşaq şəxsiyyətinin inkişafında özünü göstərə biləcək neqativ elementlərin vaxtında aradan qaldırılması baxımından xüsusi əhəmiyyət kəsb edir. Odur ki, cizgi filmlərində olan ideya və motivlərin araşdırılması və onun uşaqların psixi inkişafındakı rolunun müəyyən olunması xüsusi aktuallıq kəsb edir.**

**Tədqiqatın məqsədi: Tədqiqatın əsas məqsədi cizgi filmlərindəki ideya və motivlərin uşaqlar tərəfindən qavranılmasının və bu elementlərin təsir effektlərinin psixoloji analizidir.**

**İstifadə olunmuş tədqiqat metodları: Tədqiqatda nəzəri təhlil, müşahidə, kontent-analiz, müxtəlif tipli sorğu üsullarından, o cümlədən intervyü, anket metodlarından istifadə edilmişdir. Anket-sorğunun və müsahibənin hazırlanması zamanı çoxsaylı yerli və xarici ədəbiyyatlar təhlili edilmiş, sual toplusu müəyyənləşdirilmişdir.**

**Tədqiqatın informasiya bazası: Tədqiqat zamanı cizgi filmlərin təsir istiqamətləri və uşaqlar üzərindəki psixiloji təsiri üzrə aparılmış araşdırmalara, elmi məqalələrə, xarici ədəbiyyatlara yer verilmişdir.**

**Tədqiqatın məhdudiyyətləri: Tədqiqatın məhdud sayda cizgi filmlərinin və seçim qrupunun üzərində aparılması onun əsas məhdudiyyəti hesab oluna bilər.**

**Tədqiqatın elmi yeniliyi və praktiki nəticələri: Tədqiqatın əsas yeniliyi təhlil zamanı əsas obyekt kimi götürülmüş dörd cizgi filmin uşaqlara psixoloji təsiri və qavranılması səviyyəsi haqqında əldə edilən nəticələrdir.**

**Nəticələrin istifadə oluna biləcəyi sahələr: Tədqiqatdan əldə edilən nəticələr media sahəsində, sosiologiya, psixologiya elmlərində aparılan araşdırmalarda, mövzuyla bağlı mühazirə və seminarların keçirilməsində istifadə oluna bilər.**



***Açar sözlər: Cizgi filmləri, psixoloji təsir, personaj***

# PSYCHOLOGICAL ANALYSIS OF CHILDREN'S PERCEPTION OF IDEAS AND MOTIVATIONS IN CARTOON FILMS AND THE EFFECTS OF THEIR IMPACT ON THEM


## SUMMARY

**Relevance of the study: The target audience of cartoons is usually children. Some claim that cartoons entertain children and expose them to new worlds, giving them the opportunity to travel the world to learn different things and come up with ideas they will never encounter in their environment. Others claim that children can learn things from cartoons that their parents do not want them to do, so cartoons have a negative effect on them. In general, the positive or negative effects of cartoons should not be one-sided, but should be considered in the context of the family, environment, socialization and upbringing processes that play a direct role in the formation of a child's personality. However, determining the nature of the impact and its level is of particular importance in terms of timely elimination of negative elements that may manifest themselves in the development of the child's personality. Therefore, the study of ideas and motives in cartoons and the definition of its role in the mental development of children is of particular importance.**

**Purpose of the study: The main principle of the research is the psychological analysis of children's perception of ideas and motives in cartoons and the effects of these elements.**

**Research methods used: Research questionnaire, detection, content analysis, impact method were used. During the preparation of the questionnaire and the state, a large number of local and foreign literature was analyzed and questions were investigated.**

**Research database: The research includes research on the effects of cartoons and psychological effects on children, scientific articles, foreign literature.**

**Limitations of the research: The main reason for this research is the scientific analysis that was completely deleted during the research.**

**Scientific novelty and practical results of the research: The main object of the research is the novelty of the four cartoons taken during the analysis, which lead to the conclusions about the level of psychological impact and perception of children.**

**Areas where the results can be used: According to the results obtained from the research, it can be used by persons engaged in social science, who write research and scientific work in these departments, and scientific objects.**



***Keywords: Cartoons, psychological impact, character***

# GİRİŞ

Mövzunun aktuallığı. Yaşadığımız dövr rəqəmsallaşma dövrü olduğundan, bir zamanlar çətinliklə əldə edə biləcəklərimiz, bu gün çox asanlıqla sahib ola bilirik.

Doğulduğu aydan etibarən telelfon, planşet və televizorla tanış olan uşaqlar, bir müddət sonra özləri artıq telefonu idarə edə bilir, istədiyi cizgi filmi qoyur, hətta valdeyinlərinə də öyrədəcək hala gəlirlər.

Əksər uşaqlar cizgi filmlər ilə ilk olaraq televizorda tanış olurlar. Kütləvi informasiya vasitələri arasında televiziya həyatımıza daxil olduğu gündən bəri təsirli vasitəyə çevrilmişdir. Gündəlik həyatda uşaqların ən çox istifadə etdiyi vasitələrdən biri olduğunu üçün onlara daha çox təsir edir (İşliyen, 2020). Cizgi filmlərindəki fiqurlar və davranışlar uşaqları ən çox cəlb edən elementlərdir (Wijethikala, 2020).

Müasir dövrdə cizgi filmlərin həddən artıq sayı artmış, sujet xətləri dəyişmiş, personajların uşaqlara çatdırdığı fikirlər daha da kəskinləşmiş, cizgi film bazarı rəqaəbətədavamlı olmaq üçün uşaqların fikrini və diqqətini daha çox cəlb etməyə istiqamətlənmiş animasiyalar yayımlamağa başlamışdır.

Mövzu üzrə araşdırmalara baxdıqda görürük ki, bəzi tədqiqatçılar cizgi filmlərin uşaqların xəyali dünyasını inkişaf etdirdiyi, qavrama prosesini sürrətləndirdiyi, nitqin inkiafını təmin etidiyini qeyd etdiyi halda, digər tədqiqatçılar cizgi filmlərin aqressiyanı artırdığı, xoş olmayan davranışları təqlid etidiyi qənaətinə gəlmişdir. Lakin cizgi filmlərin təsir istiqamətləri bir tərəfli deyildir və ona yaşadığı mühit, yaş və cins fərqi, ailə böyük miqyasda təsir göstərir. Cizgi filmlərin mənfi və müsbət təsirlərinin təhlili uşaqların qarşılaşa biləcəyi neqativ hallardan qorumağa kömək edəcəkdir. Buna görə də, cizgi filmlərində olan ideya və motivlərin araşdırılması və onun uşaqların psixi inkişafındakı rolunun müəyyən olunması xüsusi aktuallığa malikdir.

Mövzunun işlənmə səviyyəsi. Mövzu üzrə 21-ci əsrdə araşdırma aparanlardan biri Hossler ollmuşdur. Hossler (2004) iddia etmişdir ki, psixoloji

tədqiqatlar zorakılığın uşaqlar üzərində üç əsas təsirini aşkar edib. Birincisi, zorakılığa məruz qalan uşaqlar başqa insanların ağrı və əzablarına qarşı həssas ola bilərlər. İkincisi, şiddət xarakterli cizgi filmlərinə baxan uşaqlar zorakılıqdan qorxmur və ya bütövlükdə zorakılıqdan narahat olmurlar və daha çox aqressivləşirlər və ya başqalarına zərər verirlər. Digər bir araşdırma T. Wijethilaka aiddir. T. Wijethilakanın "Cizgi filmlərinin uşaqlara təsiri" adlı 2016-cı ildə apardığı araşdırmaya görə, uşaqlar daha çox cizgi filmlərinə cəlb olunur və bu cizgi filmləri onların davranışlarını birbaşa və ya dolayısı ilə formalaşdırır. Bu araşdırma daha sonra üzə çıxardı ki, 3 yaşına qədər uşaqlar daha çox izləyiciyə çevrilirlər. O, həmçinin cizgi filminin uşaqlara müəyyən müsbət təsirinin olduğunu, məsələn, uşaqların dil, əxlaqi və əqli inkişafına kömək etdiyini izah etdi.

Azərbaycanda cizgi filmlərin uşaqların davranışına təsiri haqqında konkret işində Azərbaycanda uşaqların cizgi filmlərinin təsiri və onun qavranılması öyrənilmiş, eyni zamanda təsir formaları haqqında yeniliklər əldə edilmişdir. Bunlara H. Xəlilovun (2010) "Uşaq və yeniyetmələrin inkişafının sosial-psixoloji məsələləri" adlı kitabları, L. Cabbarovanın 2016-cı ildə yazdığı "Medyanın erken çocukluk döneminde gelişime olan etkisi" adlı məqaləsi, Sosial Tədqiqatlar Mərkəzində 2020-ci ildə yayımlanan "Uşaqlarımızın izlədiyi cizgi filmləri" adlı məqalə, Kaspinin 2016-cı ildə yayımladığı "Cizgi filmləri: səhv seçiləndə, dərd verir o da" adlı uşaqlara aqresivlik verən çizgi filmlər haqqında yazdığı məqaləni, "Üç nöqtə" jurnalının 2020-ci ildə yayımladığı "Uşaqların mənəvi inkişafı üçün onlara vətənpərvərlik hissələrini a.şılamaq lazımdır" başlıqlı məqaləsini misal göstərmək mümkündür. Bunlarla yanaşı, Ə.K. Zəküyev, M.C. Məhərrəmov, Ə.Ə. Əlizadə İ.N. Məmmədov, Z.M. Mehdizadə və b. tərəfindən uşaq psixologiyası araşdırılmış və müstəsna nəticələr əldə edilmişdir.

Tədqiqatın obyekti. Cizgi filmlərdəki ideya və motivlər.

Tədqiqatın predmeti. Tədqiqatın predmeti cizgi filmlərindəki ideya və motivlərin psixoloji analizi və onların uşaqlar tərəfindən qavranılmasının və onlara təsir effektlərinin tədqiqi təşkil edir.

Tədqiqatın məqsədi. Tədqiqatın əsas məqsədi cizgi filmlərindəki ideya və motivlərin uşaqlar tərəfindən qavranılmasının və bu elementlərin təsir effektlərinin psixoloji analizidir.

Tədqiqatın vəzifələri. Tədqiqat işində qarşıya qoyulmuş məqsədə nail olmaq üçün aşağıdaki vəzifələr qoyulmuşdur:

1. Mövzu ilə bağlı ədəbiyyatların araşdırılması və mövcud nəzəriyyə və konsepsiyaların təhlili və onların sistemləşdirilməsi;

2. Cizgi filmlərinin uşaqlara mənfi və müsbət təsir hallarının müəyyən edilməsi;

3. Cizgi filmlərinin uşaqlar tərəfindən qavranılmasının spesifik xüsusiyyətlərinin araşdırılması;

4. Cizgi filmlərinin mənfi təsirlərinin aradan qaldırılması yollarının təhlili.

Tədqiqatın fərziyyəsi. Tədqiqat zamanı aşağıdakı fərziyyələr irəli sürülmüşdür:

- Sujet xətti və təbliğ olunan ideyaların xarakterindən asılı olaraq cizgi filmlərinin uşaqlar tərəfindən qavranılması fərqli yaş, gender xüsusiyyətlərinə malik olur.

- Cizgi filmlərinin əsas məzmun, ideya və sujet xəttinə müvafiq olaraq uşaqlarda bir sıra emosional (qorxu, təşviş) və davranış (prososial, agressiv) dəyişiklikləri yarana bilir.

Tədqiqatın gedişində istifadə olunan metodikalar. Tədqiqatda anket-sorğudan, müşahidədən, kontent analizdən, müsahibə metodundan istifadə edilmişdir. Anket-sorğunun və müsahibənin hazırlanması zamanı çoxsaylı yerli və xarici ədəbiyatlar təhlili edilmiş, sual toplusu müəyyənləşdirilmişdir. Tədqiqat zamanı iştirakçılar haqqında “sosial-demoqrafik məlumatlar” əldə edilmiş, valideynlərə 5 sualldan ibarət “cizgi filmlərin təsir effektləri” anket sorğusu, uşaqlara 20 suallardan ibarət “cizgi filmlərin təsiri və qavranılması” anket sorğusu daxil olmaqla ümumilikdə 34 sual verilmişdir.

Tədqiqatın nəzəri və praktik əhəmiyyəti. Tədqiqatdan əldə edilən məlumatlar  ümumi, sosial, uşaq psixologiyası üzrə fənlərin tədrisində, ümumitəhsil müəssisələrində işləyən psixoloqların. eləcə də psixoloji mərkəzlərdə çalışan praktik psixoloqların fəaliyyətində, valdeynlər üçün müəyyən  oluna bilər.

Tədqiqat işinin strukturu. Dissertasiya işi giriş, 3 fəsildən, eləcə də hər  fəsilə daxil olan yarımfəsillərdən, nəticə, ədəbiyyat siyahısı da daxil olmaqla ümumilikdə 90 səhifədən (22163 simvoldan) ibarətdir.

# I FƏSİL. CİZGİ FİLMLƏRİNİN UŞAQLARA TƏSİRİNİN ELMİ-NƏZƏRİ MƏSƏLƏLƏRİ

## 1.1. Cizgi filmlərinin yaranması və təşəkkül xüsusiyyətləri

Cizgi filmi (Cartoon) sözü karikatura ilə bağlıdır. Karikatura sözü italyanca şişirtmə mənasını verən "caricare" sözündən götürülmüşdür. Konseptual olaraq karikaturaya əsaslansa da, cizgi filmi öz mənşəyini başqa bir italyan sözü olan kartonda tapır ki, bu da möhkəm kağız üzərində çəkilmiş böyük, tam ölçülü rəsm kimi tərcümə olunur (Aponte, 2013).

Cizgi filmləri adətən insanların uşaqlıq dövrünün ayrılmaz hissəsi kimi baxırlar. Cizgi filmləri rəngarəng dünyası, maraqlı sujet xətti, yadda qalan dialoq və personajları ilə uşaqları cəzb edir. Cizgi filmlərinin bu qabiliyyəti televiziyadan başqa digər media formaları ilə də uyğundur. Buna görə uşaq nağıl kitablarında çoxlu illüstrasiyalar var. Uşaqlar üçün cizgi filmləri sadəcə olaraq müvəqqəti əyləncə mənbəyi kimi fəaliyyət göstərmir. Onlar ünsiyyət, anlama və diqqət kimi bir çox bacarıqları inkişaf etdirir və təkmilləşdirirlər (Wijethilaka, 2020).

Animasiya sənətinin ibtidai icma quruluşuna qədər gedib çıxan bir tarixi vardır (Левашова, 2019). İlk ağıllı insanlar özlərinin güdəlik hərəkət fəaliyyətlərini mağaraların çölündə və içində rəsm etmişdir. Mağara rəsmləri hərəkətli olmasa da hərəkəti təsvir etmək üçün çəkilmişdir. Bu fakt da bizə animasiyanın ilk mərhələsinin bu dövrdən başlandığını söyləməyə əsas verir (Ürtekin, 2018).

Qədim misirlilər və yunanlar divar bəzəkləri və qablar üzərində hərəkətləri təsvirləri edən rəsmləri hələ 1600-cü illərdən çəkməyə başlamışlar. Şəkilləri ekranda hərəkətli şəkildə təsviri üçün ilk ciddi cəhd isə 1640-cı ildə Alman alim Athanasius Kiljə tərəfindən həyata keçirilmişdir (Olasinde, 2018).

Əvvəllər cizgi filmləri müxtəlif məqsədlər üçün yaradılırdı. İtaliyada karikaturadan sonra cizgi filmləri yarananda freskaların rənglənməsi üçün istifadə olunurdu. Belə bir rəsm nəm gips və ya tavana çəkilir və İtaliyada olduqca geniş

yayılmışdır. Bundan sonra müasir dövr yaxınlaşdıqca cizgi filmləri xüsusilə siyasətdə yumor ifadəsi vasitəsi kimi istifadə olunurdu. Cizgi filmləri zaman keçdikcə daha çox satirik xarakter almağa başladı. Siyasətlə bağlı olduqları üçün cizgi filmləri təbii olaraq kütləvi informasiya vasitələri mədəniyyətinin bir hissəsinə çevrildi (Bagwan, 2021).

Animasiyanın və kinonun yaranmasında bir nçə ixtira əsas rol oynamışdır. Bunlar fenakistoskop, zoetrop, praksinoskop, eləcə də flip kitab daxildir. Taumatrop  19-cu əsrdə, daha dəqiq desək 1824 ildə məşhur olan bir oyuncaqdır (Moreno, 2014). Fenakistoskop 1831-ci ildə belşikalı Cozef Plato və Avstriyalı Simon Von Stampfer tərəfindən eyni vaxtda icad edilmişdir (Ürtekin, 2018). Zootropu 1833-cü ildə ixtiraçı Uilyam Corc Horner tərəfindən Zootropun ixtira edilmişdir. Zootrop dizaynı insan görmə ətalətinə əsaslanan hərəkətli şəkilləri nümayiş etdirmək üçün bir cihazdır (Косыгина, Борисовна, 2021). Flip Kitabı səhifədən digərinə qədər tədricən dəyişən bir sıra çəkilmiş şəkilərdən ibarət olan bir kitabdır. Səhifələr sürətlə çevirildikdə, şəkilləri ardıcıl formada bir hekayə kimi gedir (Sfetcu, 2021). 1868-ci ildə John Barnes Linnett onu kineoqraf adı altında patentləşdirmişdir (Wijethilaka, 2020). Praksinoskop 1876-cı ildə Parisdən olan Çarls Emile Reynau tərəfindən icad edilmiş cihazdır. Zoetropa çox bənzəyir. İki aparat arasındakı əsas fərq zoetropda baxmaq üçün kəsiklərin olmasından ibarətdir. Praksinoskopda isə onlar güzgülərlə əvəz edilir. Buna görə də şəkilin keyfiyyəti daha aydın və daha az təhrif edilmişdir.  (Moreno, 2014).

Zaman keçdikcə kiçik oxucular üçün çap cizgi filmləri komikslər şəklində daha çox yayılmağa başlandı. Bunlar 1900-cü illərin əvvəllərində Böyük Britaniyada böyük populyarlıq qazandı. O vaxtlar cizgi filmləri müəyyən bir hekayəni izləyirdi və əvvəlki redaksiya məqalələrində olduğundan daha uzun idi. Onlar romanlar və jurnallar kimi digər ənənəvi əyləncə üsulları ilə rəqabət kimi ortaya çıxdılar (Bagwan, 2021).

1906-cı ildə Amerikan animasiyasının atası kimi tanınan Ceyms Stuart Blekton, Stop Motion Animation texnikasından istifadə edərək “Məzəli üzlərin yumoristik mərhələsi” adlı ilk cizgi filmini lentə aldı (Ghose və Gupta, 2018).

Stop monition animation və ya hərəkəti dayandıran animasiya, real dünya obyektlərinin hərəkət edirmiş kimi görünməsi üçün istifadə edilən kinematik proses və ya texnikadır (Moreno, 2014).

Tezliklə cizgi filmləri populyar mədəniyyətə yol tapdı və orada əhəmiyyətli iz qoydu. O vaxtdan bəri animasiya cizgi filmlərinin sürəti və populyarlığı artdı və bu gün də o, populyarlığını qorumağa davam edir.

İlk animatorlardan biri 1908-cı ildə rəsmlər əsasında ilk filmini çəkən, dünya kino tarixinə daxil olan fransız karikaturaçı rəssam Emil Koulk olmuşdur (Мир-Багирзаде, 2019).

İlk cizgi filmləri qısa idi, daha sonra cizgi film şəbəkəsində, Disney kanalında və Nickelodeon-da bugünkü 30 dəqiqəlik blok şouları inkişaf etdirilərək daha uzun davam etməyə başlandı. İlk əsl cizgi film ulduzu 1920-ci illərin simvolu “Pişik Feliks” idi. Disney studiyası növbəti 10 il ərzində Danld Dak (Donald Duck), Miki Maus (Mickey Mouse), Pluto kimi cizgi filmi personajları təqdim etdi.

Bu gün bildiyimiz ilk cizgi filmi çərçivə blokudur və məzmunu ‘diyircək formasında şarı olan bir şəxsi’ ehtiva edir.

1930-cu illərdə əsas studiyalar Paramount, Warner Bros, Universal və MetroGoldwyn-Mayer Inc. idi. Bu cizgi film studiyalarının hər biri istehsalın yayılması üçün öz cizgi film departamentlərini yaratdılar. Cizgi filminin inkişafı effektiv şəkildə geniş vüsat alması ilə olmuşdur (Sfetcu, 2021).

Dünyada 1930-1950-ci illər karikatura sənayesinin "qızıl dövrü" hesab edilir. Televiziyada dramatik cizgi filmlərinin bir çoxu bu dövrdən yaranmışdır. Məsələn, Paramountdan Littl Audrey (1948-1959) və Litde Lulu (1943-1967), Warnerdən Tom və Ceri (Tom and Jerry), Dafi Dak (Daffy Duck, 1937), Parki Piq (Porky Pig, 1936) və Bags Banni (Bugs Bunny,1940) buraya daxildir. Bu cizgi

filmlərindən Tom və Ceri və Baqs Bunni kimi cizgi filmlər bu gün də yayımlanmaqda davam edilir.

Azərbaycanda cizgi filmlərinin yaranması XX əsrin 30-cu illərinin əvvəllərində təsadüf edir. Ağanağı Yaqub oğlu Axundov Azərbaycan animasiyasının banisi hesab edilir (Мир-Багиров, 2019). 1969-cu ildə Azərbaycanfilm kinostudiyasında ilk "Cırtdan" cizgi filmi yaradılmış, rejisoru rəssam-animatorlar emalatxanasının rəhbəri Ağanağı Axundov olmuşdur (Мир-Багирзаде, 2019).

1935-cı ildə o vaxtlar Azerfilm kinostudiyası kimi adlanan Azərbaycanfilm özünün animasiya emalatxanasını qurmuş və həmin emalatxanada "Abbasın bədbəxtliyi" adlı ilk bədii cizgi filmi çəkmişdir. Azərbaycan tənqidçisi və ədəbiyyatşünası Araz Dadaşzadənin (Dadaşzadə, 2021) ssenari müəllifi olduğu "Tülküyə uymuş kukla" multfilmi ilk, yeganə genişekranlı Azərbaycan cizgi filmidir (Azərbaycan Milli Kitabxanası, 2021).

Azərbaycan poeziyasının böyük klassiki Nizami Gəncəvidən (1141-1209) "Fitnə", "Şah və nökər", "Xeyir və şər" ümumi adı ilə "Xəmsə" ("Beşli") poemaları Azərbaycan rəssamları tərəfindən üç cizgi filmində öz əksini tapmışdır. 1970-ci ildə rejissor Ağanağı Axundovun və rəssam Elbəy Rzaquliyevin ("Azərbaycanfilm") çəkdiyi "Fitnə" cizgi filminin əsasını "Bəhramın cariyəsi ilə macərası" və "Bəhram ova gedəndən sonra" povestlərindən ibarət "Yeddi gözəl" poeması təşkil edir.

Hər bir cizgi filminin yaradılması prosesində Azərbaycan klassik yazıçılarının, yəni Nizami Gəncəvinin, Məhəmməd Füzulinin, Seyid Əzim Şirvaninin, Mirzə Ələkbər Sabirin, Cəlil Məmmədqulizadənin, Abdulla Şaizin, Süleyman Sami Axundov, Əli Kərim, Rəsul Rza əsərləri əsasında cizgi filmləri çəkən peşəkar rejissorlar, ssenaristlər, quruluşçu rəssamlar var idi.

1980-90-cı illərdə Uolt Disney tərəfindən çəkilmiş Bugs Bunny, Tom və Cerri, Ninja Turtles kimi cizgi filmləri əyləncə bazarında əhəmiyyətli uğur

qazanmışdı. Sonraki illərdə Bakugan və Pokemon kimi yapon istehsalları cizgi filmləri yayımlanmışdır (Şeşen və Ertürk, 2018).

Hanna-Barbera tərəfindən çəkilmiş Çaxmaqdaşlar (1960) uğurlu ilk “prime time” cizgi filmi seriyası idi. Bu həm də 1989-cu ildə Simsonların premyerasına qədər “prime time”ın son məhsuldar seriyası idi.

2002-ci ildə Disney öz rəsmi kanalının fəaliyyətinə başladı və Birləşmiş Ştatlarda ümumi əhalinin təxminən 75%-ni təşkil edən 80 milyon ailəyə yayımlanırdı.

Bu gündə animatorlar qədim folklor nümunələrinə müraciət edirlər. 2012 ildə 3D formatında lentə alınan Cırtdan və Təpəgöz cizgi filmində nağıl süjetləri dekonstuksiya edilmişdir. Günümüzdə də müxtəlif nağılların personajları bir filmdə birləşdirilirlər (Мир-Багирзаде, 2019).

2012-cı ildən etibarən yaş aralığı anlayışı tətbiq edilməyə başlanmışdır. Bu, istənilən cizgi film və ya filmin nümayişində yaş həddinin təyin edilməlidir ki, yaş məhdudiyyətinin tətbiqi tədbirləri uşaqları arzuolunmaz, zərərli məlumatlardan qorumaq ehtiyacı ilə əlaqələndirilir. Lakin bu barədə böyüklərin etdiyi əsas səhvlərdən biri də bu yaş reytinqlərini görməməzlikdən gəlmələridir (Газиева, 2020).

Cizgi filmləri müasir vəziyyətinə gələnə qədər uzun inkişaf dövründən keçmiş, genişlənmiş və istifadə forması dəyişmişdir. Cizgi filmlərin sayı artdıqca onun təsir mexanizminin predmeti də böyümüşdür. Bununla bağlı tədqiqatın növbəti hissəsində məlumat veriləcəkdir.

## 1.2. Cizgi filimlərdə psixoloji təsir effektləri

Çox zaman insanın həyatında ən gözəl vaxtı onun uşaqlığı olduğu düşünülür. Uşaqlar cizgi filmləri ilə valideynləri tərəfindən çox tez tanış olurlar. Buna səbəb isə valdeynlərin gərgin iş qrafikləri işləməsi və uşaqlarına yetəri qədər vaxt ayıra bilməməsidir ki, bu da son nəticədə uşaqların valdeynləri ilə deyil, daha çox cizgi filmləri ilə vaxt keçirməsinə səbəb olmuşdur (Лаврикова, 2021). Bu gün uşaqlar

dostları ilə həyətdə oyanamaq kimi digər fəaliyyətlərdən daha çox cizgi filmlərinə baxmağa meyl edirlər. YUNESKO-nun məlumatına görə, 3-6 yaşlı məktəbəqədər uşaqlar gündə orta hesabla 3-4 saat, həftədə təxminən 25 saat televizora və xüsusən də cizgi filmlərinə baxmaqla məşğuldurlar (Волошина, 2019). Onlar yaşadığı ətraf mühitə uyğun olaraq formalaşırlar, cizgi film programı vasitəsi ilə əylənirlər, öz real həyatlarını cizgi filmləri ilə qarışdıra bilirlər.

Cizgi filmlərin müxtəlif növ effektləri mövcuddur: fiziki, mənəvi, koqnitiv və davranış sferasına təsir (Mahmood, Bhatti and İftikhar, 2020). Bununlar yanaşı cizgi filmlərin qarşı tərəfə ötürdüyü bir çox mesajlar da vardır. Mesajlar dörd əsas başlıq altında təsnif edilir: mənəvi mesajlar, psixoloji mesajlar, sosial mesajlar və iqtisadi mesajlar (Kara, 2019).

1. Mənəvi mesajlar. Onlar fərdin mənəvi tərəfinə xitab edən mesajlardır. Fərdin cəmiyyətə qarşı davranışına yönəldilir. Bu mesajlar insanın vicdan tərəfini təşkil edir. Mənəvi mesajlar bölməsində “dürüstlük” və “yalan” mesajları var.

2. Psixoloji mesajlar. Psixologiya “bir qrupu və ya fərdi müəyyən edən hərəkət, düşüncə və hiss yollarının bütünü” kimi müəyyən edilir. Onlar fərdin anadangəlmə və sonradan qazanılmış davranış xüsusiyyətləri üçün mesajlardır. Bu mesajlar fərdin şəxsiyyəti ilə bağlı mesajlardır. Bu başlıq altında “səbir, qətiyyət, qısqanclıq, ümid, qəzəb, yaxşılıq-şər, doğruluq-haqsızlıq, kin, şiddət, paylaşma, şəfqət, sevgi, hörmət” mesajları verilir. Aşağıda bu mesajların izahı verilərək, uşaqların bir fərd kimi formalaşaması üzərindəki təsirini aşkar bir şəkildə görmək mümkündür.

a. Səbir, qətiyyət. Səbir anlayışı fərdin qarşılaşdığı çətinliklər qarşısında sakitcə gözləməkdir. Başqa bir məna isə insanın qəzəbli vəziyyətlərdə möhkəmliyini qoruyub saxlamasıdır. Yaşadığı mənfiliklərdə və çətinliklərdə sakit qalaraq fərd üçün mübarizə aparması üçün bir mesajdır.

Qətiyyət anlayışı fərdin bir mövzuya münasibətini qoruyub saxlamasıdır. Bu, bir mövzuda sabit olma vəziyyətidir. Özünə zidd olmayan fərdin şəxsiyyət münasibətidir.

Fərdin öz işində uğur qazanmasında qətiyyətli münasibətin olması vacibdir. Bundan əlavə, qətiyyətli insanlar cəmiyyət tərəfindən təqdir edilən və davranışı proqnozlaşdırıla bilən insanlardır. Bu baxımdan fərdin uğur qazanması və fərd olaraq cəmiyyətdə yer qazanması üçün əzmkarlıq mesajı vacibdir.

b. Qısqanclıq. Qısqanclıq, bir insanın bir insanı və ya münasibətini itirmək qorxusunu yaşadığı mürəkkəb bir əhval-ruhiyyədir.

Fərdi təkliyə sövq edən, yaşadığı mühitdə kənar bir insan olmasına səbəb olan bir mesajdır. Çünki hər iki tərifdə fərd tərəfindən edilən davranış pozğunluğu olduğu qeyd edilir. Bu, insanın ətraf mühit tərəfindən mənfi qəbul edilməsinə və təcrid olunmasına gətirib çıxarır. Qısqanclıq mesajı hələ də körpə zehinlər üçün olduqca neqativ bir mesajdır.

c. Ümid. Mövcud vəziyyətdən daha yaxşı vəziyyətlərin ola biləcəyi fərdin müsbət hissləri və düşüncələridir. Bu, fərdin yaşamaq istəyini dəstəkləyən bir mesajdır. Fərdin həyatın mənfi və çətinliyinə baxmayaraq tərəddüd etmədən həyatını davam etdirməsini və həyatının hər anından həzz almasını təmin edir. Ümid mesajı insana yaşamaq üçün uşaqlara enerji verir, gələcəkdə melanxonik insan olmasının qarşısını alır. Bu baxımdan müsbət və əhəmiyyətli bir mesajdır.

d. Qəzəb. Kədər, ağrı və inciklik kimi duyğular nəticəsində bir insanın göstərdiyi təcavüz və ya qəzəb vəziyyətidir. Qəzəb, insanın ətrafına və özünə zərər verdiyini göstərən mesajdır.

e. Xeyir-Şər. Xeyirxahlıq bir insanın heç bir qarşılıq gözləmədən göstərdiyi köməkdir. Bu mesaj fərdlərə yaxşı insanların xoşbəxt və sevdikləri mesajını verir. Yaxşılıq edən şəxslər cəmiyyət tərəfindən bəyənilir, hörmət edilir və nümunə göstərilir. Cəmiyyətin əhatə etdiyi bu xüsusiyyətə malik olan fərdlər cəmiyyətin mühüm bir hissəsinə çevrilir. Cəmiyyət tərəfindən bəyənilən şəxsin özünə inamı artır. Bundan əlavə, davranışının bəyənilməsi ilə cəmiyyətdə bəzi fərdlərə örnək olur. Bu davranış cəmiyyətdə yayılmağa başlayır. Buna görə də, bu hislərin insanlara uşaqlıq dövründən etibaən aşılanması çox vacibdir (Kara, 2019).

Şər bir insanın başqasına zərər vermək cəhdidir. Bu zərər fiziki, maddi və ya mənəvi ola bilər. Bu mesaj adətən cizgi filmlərində ona görə verilir ki, pislik edən şəxslər bəyənilmir, kənarlaşdırılır və mübarizəni itirirlər.

f. Haqsızlıq - ədalətsizlik. Salehlik ədalət və qaydalara uyğunluq halıdır. Uşağa düzgün şəxslərin cəmiyyət tərəfindən qəbul edilən və sevilən insanlar olduğu mesajı verilir. Bundan əlavə, bu insanlar hörmətli və etibarlı insanlardır. Bu baxımdan uşaqlar üçün müsbət və əhəmiyyətli bir mesajdır.

Haqsızlıq, insanın ədalətə və qaydalara zidd hərəkət etməsidir. Bu davranışı nümayiş etdirən şəxslər cəmiyyət tərəfindən müsbət qarşılanmır və kənarlaşdırılmır. Bu səbəbdən fərdlər haqsızlıq etməkdən çəkinirlər. Bu mesaj uşaqlara qarşı haqsızlıq edən fərdlərin cəmiyyətdəki neqativ vəziyyətini təsvir edir. Uşaq bu mesajdan nəticə çıxararaq haqsızlıq etməkdən uzaqlaşır.

g. Nifrət. Bu, kiməsə qarşı gizli düşmənçilik və qisas almaq istəyidir. Bu, bir insanın həyatına mənfi təsir göstərən bir mesajdır. Çünki kin saxlayan insan öz həyatının dəyərini dərk etmədən vaxtını mənfi istiqamətdə keçirir. Bu, fərddə vəsvəsə səbəb ola biləcək bir mesajdır. Fərd bütün həyatını bu mesaja uyğun quraraq yaşayır. Bu, insanın özünə vurulan ən böyük zərərdir. Çünki həyat müəyyən bir dövrü əhatə edən bir prosesdir və bu vaxtı geriyə çevirmək olmaz. Ona görə də hər an çox önəmlidir. Amma kini olan biri bunun fərqində deyil. Bu baxımdan fərd üçün mənfi bir mesajdır.

h. Zorakılıq. Zorakılıq hər hansı fiziki, cinsi, psixoloji, şifahi və ya iqtisadi münasibət və davranışdır, o cümlədən fərdə fiziki, cinsi, psixoloji və iqtisadi zərər və ya iztirab, buna qarşı təhdid və təzyiqlər və ya özbaşına məhrumetmə ilə nəticələnən və ya nəticələnəcək hərəkətlərdir. azadlığın." (məişət zorakılığı.ədalət). Zorakılıq bir şəxsin başqa bir insana maddi və ya mənəvi zərər vurmasıdır. Bu, fərdin psixoloji problemlərinə və ya çatışmazlıqlarına əsaslanır. Fərd genlərdən gələn və ətraf mühitdən qazanılan xüsusiyyətlərlə şiddətə meylli ola bilər. Belə hallarda zorakılıq psixoloji ölçü qazanır və müalicə olmadan həll edilə bilməz. Zorakılıqdan istifadə edən şəxslər cəmiyyət tərəfindən xoş

qarşılanmayan və ondan çəkinən fərdlərdir. Zorakı davranışlar edən şəxslər tək qalırlar. Bu səbəbdən şiddət mesajı uşaqlar üçün mənfi bir mesajdır.

i. Paylaşma. Fərdin malik olduğu maddi məhsulları və mənəvi imkanları başqa bir şəxslə paylaşıb bölüşdürmə vəziyyətidir. Paylaşmaq insanın rifahından irəli gəlir. Çünki qarşılığında heç nə gözləmədən sahib olduğu imkanları başqaları ilə bölüşür. Bu səbəbdən cəmiyyətdə fərdləri paylaşmağa dəyər verilir. Bu, uşaqlar üçün müsbət və vacib bir mesajdır.

j. Faydalılıq. İnsanlara kömək etməyi sevən və bu vəziyyətdən zövq alan, kömək etmək üçün fürsətlərdən istifadə edən bir insandır. Bu davranışın əsasını xeyirxahlıq təşkil edir. Bu davranışı nümayiş etdirən fərdlər ətrafları tərəfindən onlara qayğı göstərilir, hörmət edilir və nümunə göstərilir. Xeyirxahlıq mesajı uşaq üçün müsbət mesajdır. Bu, uşağa insani dəyərləri aşılayan və öyrədən bir mesajdır və hər şeyin qiyməti yoxdur.

k. Hörmət. Bu, böyüklərə, müqəddəs şeylərə və ya fikir və fikirlərə məhəbbət, utancaqlıq və incə şəkildə nümayiş etdirilən bağlılıq hissidir. Hörmət bəşəriyyətin keçmişdən bu günə əhəmiyyət verdiyi və ehtiyac duyduğu bir elementdir. Çünki hörmət digər insana dəyər vermək və ona qayğı göstərmək mənasını ehtiva edir. Bu səbəbdən cəmiyyət tərəfindən böyük əhəmiyyət verilən bir anlayışdır. Hörmət hətta Maslounun "Ehtiyaclar İyerarxiyası"nda öz yerini tapmışdır.

Cizgi filmlərini çox uzun müddət izləmək, uşaqlarda emosional, zehni, davranış, psixoloji hətta fiziki problemlərə səbəb ola bilər (Koçak ve Göktaş, 2020).

Üç yaşından kiçik uşaqlara ümumiyyətlə cizgi filmlərinə baxmaq tövsiyə edilmir. Çünki uşaqlar cizgi filmə baxarkən, filmin sonuna qədər heç yerindən tərpənmir və yalnız cizgi filmə diqqət yetirirlər. Bu da gələcəkdə belə uşaqlarda görmə, nitq, hərəkətlərin koordinasiyası, hətta artıq çəki problemi yarada, həmçinin belə uşaqlar inkişafdan geri də qala bilərlər (Глаз, 2019).

Cizgi filmləri tamaşaçılara əyləncə və istirahət forması kimi tədqim edilir, lakin cizgi film müxtəlif vaxtlarda qarşımıza çıxır. Cəmiyyətə müxtəlif yollarla təsir göstərir, eyni zamanda bəzi cizgi filmlər, məsələn, Simsonlar, Artur və Süngər Bob hər biri müxtəlif yaş qrupları üçün nəzərdə tutulur. Cizgi filmlər uşaqların sosiallaşmasında böyük və əhəmiyyətli rol oynayır, çünki insanların şüurunda onların davranışlarına, başqaları ilə qarşılıqlı əlaqəsinə təsir edə bilən ideyalar, fikirlər formalaşır.

Öyrədici proqramlarına baxan uşaqlar, televiziyadan şiddət səhnələri və ya əyləncə izləyən uşaqlardan daha yüksək qiymət alır, nailiyyətləri daha çox qiymətləndirir, daha çox kitab oxuyur və daha yaradıcı olurlar. Beləliklə, uşaqlar bir çox məlumatı cizgi filmlərə baxdıqda öyrənirlər və bu onların digər uşaqlarla və ümumiyyətlə dünya ilə qarşılıqlı əlaqəsinə təsir göstərir.

Cizgi filmə baxmaq uşaqların bəyəndiyi və bəyənmədiyi davranış və rəftarına, dostları ilə davranış tərzinə, danışıq, geyinmə tərzinə təsir göstərir. Bu, əm uşaqların dilinə, həm də yemək tərzində rol oynayır. Uşaqlar sosial münasibətlərini tanıyır və həyatlarını formalaşdırdıqları faydalı və mənfi yolları əks etdirirlər.

Cizgi filmlərinin uşaqların davranışlarına təsir etməsinin ilk səbəblərindən biri də uşaq psixikasının hələ tam formalaşmamasıdır. Çox parlaq rənglər, güclü işıq, yüksək və kəskin səslər uşağın analitik sisteminə, psixikasına təzyiq göstərir. Buna görə də, yatmazdan əvvəl belə cizgi filmlərini izləmək tövsiyə edilmir, çünki bu tip cizgi film uşaqda həddindən artıq həyəcanlılıqla yuxu pozğunluğuna səbəb ola bilər (Лаврикова, 2021).

Psixoloji sağlamlıq dərk etmə və emosional şəxsi inkişafla, hər yaş mərhələsində uşağın ehtiyaclarını ödəməsi ilə sıx bağlıdır. Psixoloji sağlamlığın tam qorunması və inkişafı üçün uşağın ərkən yaşda ətrafdakı dünya haqqında biliyə yiyələnməsi, ilk növbədə hərəki fəaliyyətə ehtiyacı vardır. Çünki erkən uşaqlıqda beyin bədən hərəkətlərinin koordinasiyası ilə inkişaf edir və onu ekran

arxasına oturtmaqla uşaq təbii inkişaf imkanından məhrum edilir (Грозина, 2021).

Televiziya və zorakılıq münasibətlərində ən problemli vəziyyət şiddətin əyləncə elementi kimi intensiv şəkildə istifadə edilməsidir. Zorakılıq elementi bəzən komediya proqramlarından tutmuş xəbər büllletenlərinə qədər demək olar ki, bütün proqramlarda kifayət qədər yer tapır və zaman-zaman əyləncəli mövzuya çevrilə bilir (Şeşen və Ertürk, 2018).

Zorakılıq, seksuallıq, əxlaqi və etik dəyərlərə zidd davranışları ehtiva edən məzmunlar uşağın inkişafına mənfi təsir göstərir. Ona görə də uşağa nə verdiyinə, nə ilə qarşılaşdığına diqqət yetirmək lazımdır. Çünki uşaq gördüyü hər kəsi və hər şeyi təqlid etmək üçün təchiz edilmiş, ünsiyyətə hazır doğulur (İşliyen, 2020).

Qrioksun (2014) dediyinə görə, Disney flmləri uşaqlara onların kim olduqları, cəmiyyətin nə etdiyi və böyüklər dünyasında fantaziyanın nə demək olduğu, ideologiya və məsumluğun füsunkar havasını özündə birləşdirən hekayələr göstərirlər. Bu filmlərdə rəhbər salehlik və mədəni nüfuz onların unikal təqdimatından irəli gəlir. Bu mədəni nüfuzu gizlətmək üçün göz qamaşdıran texnologiya, səs effektləri, əyləncə paketli vizuallar, sürətli reklam məhsulları və isti hekayələrlə bəzədilmiş media alətindən istifadə edirlər [4]. Gökçəarslana (2010) görə, uşaqlar üçün ekranda çox ideoloji mesajlar əks etdirildiyini və böyüyənədə onun təsirlərini müşahidə edə biləcəyimizi bildirir (Bilginoğlu və Artan, 2019).

Başa sərt bir cisimlə dəfələrlə zərbə vurmaq insana ciddi zərər verə bilər. Cizgi filmlərində bu belə olmasada, yəni heç bir zərər verməsədə, uşağın real həyatda bir addım atmazdan əvvəl çaxnaşmaya düşməsinə və bir sıra zərərlərin qəbul edilməsinə səbəb ola biləcək, hərəkətin düzgün nəticəsini proqnozlaşdırmağı bilmyəcəkdir.

Bəzi cizgi filmlərinin personajlarının ailəsinə, valideynlərinə, dostlarına və yaxınlarına qarşı hörmətsizliyini, bəzən qəddarlığını aydın görmək olar. Bu kimi

cizgi filmlərinin təsiri altında uşaqlar çox vaxt bir şəxsiyyət kimi formalaşmağa başladığı bir dövrdə aqressiv oyunlara daha çox meyil edir (Бурова, 2018).

Aqressiv, həyəcanlı və dinamik cizgi filmləri uşaqda gərginlik yaradır, qısa müddətli gülüşdən sonra, şifahi və təzahürü ilə həddindən artıq həyəcan yaradır. Əksinə olaraq, yaxşı cizgi filmlər uşaqlara çoxlu müsbət emosiyalar, empatiya, gülümsəyiş və baxdıqdan sonra - ilham, gülüş, sakit bir abu-hava yaradır (Богомолова, 2020).

Koeijmans (2010) tərəfindən edilən araşdırmaya görə, cizgi filmləri adrenalin istehsalının həddindən artıq artmasına qeyri-sabit əhval-ruhiyyə səbəb ola bilir. Bu səbəbdən uşaqlar normal şəraitdə narahat və aqressiv hiss etməyə başlayırlar.

Məktəbəqədər yaşlı uşaqlarda cizgi filmlərinin istifadəsi üç psixi mexanizmin təzahürləri ilə izah edilə bilər: yoluxma, təlqin, təqlid.

- Yoluxma emosional vəziyyətin bir fərddən digərinə ötürülməsi prosesidir. Animasiya məktəbəqədər uşağın xüsusi emosional vəziyyətə girməyə kömək edir, personajlarla emosional əlaqə qurmağa imkan verir.

- Təlqin insanın şüuruna və şüuraltına psixoloji təsirdir. Bunun sayəsində müxtəlif inanclar, fikirlər,qurğular, baxışlar və mövqələri tənqidsiz şəkildə qəbul edir. Animasiya qəhrəmanların davranışı və müxtəlif vəziyyətlərin həlli ilə bağlı stereotipləri nümayiş etdirir və təklif edir.

- Təqlid hansısa modelə, nümunəyə, standarta, metoda riayət etməkdir. Üstəlik, izləmək həmişə aydın şüurlu olmur. Uşaqlar cizgi filmi personajlarının davranışlarını təqlid edirlər. Sevimli cizgi filmi personajlarını vurğulayaraq, məktəbəqədər uşaq onları təqlid etməyə, onların dilində danışmağa, cizgi filmlərindən əldə etdiyi bilikləri tətbiq etməyə başlayır. Buna görə də uşağın effektiv tərbiyəsi üçün yaxşı rol modelləri təqdim etmək vacibdir (Cirkovic, 2014).

Karikaturaçılar təsirlərini uğurlu etmək üçün üç əsas vasitəyə etibar etməlidir. Bunlar şəxsi inam, yumor və ictimai şüurdur. Animasiyalı cizgi filmləri

təsirli ünsiyyət vasitələridir, ona görə də onların dəyər, baxış bucağına əsasən, uşaqlara təsir etmək qabiliyyəti böyükdür.

Uşaqlar personajlarla bağ qurduqda onların təkcə zahiri görkəmini yox, həm də öz xarakterlərini bu istiqamətdə formalaşmasını tələb edə bilər. Bu zaman personajların verdiyi mesajlar çox əhəmiyyətlidir, çünki yaxşılığı və dürüstlüyü qorumağa çalışan personajlar uşaqlara müsbət təsir etdiyi görünür (Çolak, 2019).

Bir çox hallarda ekranda dəhşət səhnələri görən uşaq şüursuz şəkildə onlardan qorunmağa çalışır, lakin buna nail olmur. Onun psixikası pozulur və "blok" qoyur, bundan sonra uşaq qorxu hiss etməyi dayandırır. Uşaq kabusları görəndə nəinki dəhşətə gəlməyi dayandırır, həm də başqalarının narahatçılıqlarına qarşı empatiya qurma qabiliyyətini də itirir (Клюкина, 2019).

Müxtəlif insanların cizgi filmləri haqqında fərqli fikirləri mövcuddur. Bəziləri hesab edir ki, cizgi filmlərdə şiddətin yüksək olması uşaqları aqressiv edə bilir, lakin yenə də cizgi filmlərinin gənclərə təsiri olduqca mübahisəli olaraq qalır. Televiziyanın körpələr və uşaqlar üzərində hər hansı müsbət təsiri də hələ də sual altındadır, ancaq valideyn-uşaq qarşılıqlı əlaqəsinin faydaları sübut edilmişdir.

Hamı bilir ki, cizgi filmlərinin tamaşaçısı uşaqlardır, lakin hal-hazırda marketinq üçün televiziya kanalı cizgi filmlərdə böyüklərə görə reklam yerləşdirir və uşaqlarda bu reklamlara baxmış olurlar. Hər bir valideyn övladının qidanı düzgün qəbul etməsini istəyir, lakin indiki uşaq şokalad, müxtəlif içkilər istəyir. Məsələn, bəzi qida reklamları Ben Tenin şəkilləri ilə şokolad məhsullarının marketinqi yayımlayır.

Uşaq proqramlarında qarşı tərəfə kömək etmək, birlikdə iş görmək kimi müsbət davranış nümunələri ilə, həm də cinsəllik və təcavüz kimi nümunələrlə mənfi davranışlarla qarşılaşmaq mümkündür. Uşaqların bunlardan hansını götürəcəyi mühitdən, ya da personajların xarakteri ilə bağlı olaraq dəyişə bilir (Yetim və Sarıçam, 2016).

L.S. Vygotskynın mədəni-tarixi konsepsiyasına görə, ali psixi funksiyaların inkişafı və şəxsiyyətin sosial-mədəni formalaşması ətraf mühitlə qarşılıqlı əlaqədədir. Yəni animasiyanın təsirini qiymətləndirmək üçün onun daim transformasiya və dəyişmə faktını nəzərə alaraq, uşağın birbaşa qarşılıqlı əlaqədə olduğu vaxtı və məzmununu nəzərə almaq lazımdır (Грозина, 2021).

Yuxarıdakı mülahizələrdən belə bir nəticəyə gəlmək mümükündür ki, cizgi filmləri həm müsbət, həm də mənfi təsirə malikdir. Bu təsirlərin səviyyəsi və forması seçilən cizgi filmdən, onun sujet xəttindən və personajın qarşı tərəfə ötürdüyü hislərdən asılıdır.

## 1.3. Cizgi filmlərin uşaqlara təsir istiqamətləri

Çox vaxt uşaqların həyatında cizgi filmi əhəmiyyətli yerə sahib ola bilir. Oğlanlar özlərini super qəhrəman, qızlar isə şahzadə olmağı xəyal edirlər.

Uşaq nağılları və hekayələri ilə müqayisədə cizgi filmləri nisbətən yaxın vaxtlarda yaranmışdır, lakin qısa müddətdə uşaqlara kifayət qədər təsir göstərmişdir (Клюкина, 2019).

Son zamanlarda uşaqlar cizgi filmlərinə baxmağa o qədər maraq göstəriblər ki, onlar açıq havada oyun fəaliyyəti ilə məşğul olmaqdansa, televizora və ya telefona bağlı qalmağa üstünlük verirlər.

Televiziya verlişlərində yad mədəniyyətlərin, müsbət və mənfi davranışların uşağa nə dərəcədə əks olunduğunu, cizgi filmlərin cəmiyyətdəki dəyərləri nə dərəcədə ötürdüyünü bilmək daha çox uşağın inkişafı baxımından vacibdir (Cebeci və Demir, 2018). Cizgi filmə baxan zaman və sonra uşağın davranışındakı dəyişikliyi cizgi filimə baxdıqdan sonra əsas personajların ifadələrini, jest və hərəkətlərini təkrarlaması kimi müxtəlif amilləri əsasında başa düşmək mümkündür (Лаврикова, 2021).

Məlumdur ki, dərrakə, dözümlülük və digər məhdud koqnetiv və emosional resurslar uşaqları media təsirlərinə qarşı həssas edir. Bu kontekstdə medianın müsbət nəticələrini artırmaqla yanaşı onun mənfi təsirlərini azaltmaq lazımdır.

Televiziya əyləncəli, məlumatlandırıcı və maarifləndirici ola və şagirdlərin həyatında yeni fəsillər aça bilər. Bu da onlara dünyanı gəzmək, müxtəlif mədəniyyətlər haqqında məlumat əldə etmək imkanı verir.

İndiki gənclər medianın yaxın təsirinə məruz qalırlar ki, bu da onların həyata baxışlarına əhəmiyyətli dərəcədə təsir göstərir. Körpəlikdən yeniyetməlik dövrünə qədər medianı istehlak edən və digər ictimai fəaliyyətlərə sərf olunan vaxt nəticəsində medianın rolunu azaltmaq olmur.

Bu gün internetdə tamamilə müxtəlif janrlarda və hekayə xətləri cizgi filmlər tapmaq olur (Казначеева, 2020).

UNICEF-in rəsmi saytında dərc olunan araşdırmada deyilir ki, dünyada uşaqların beyin inkişafında 3 amil var:

1) Genlər və beyin inkişafı arasında güclü əlaqələr var, lakin ətrafdakı təcrübə beynin necə işləyəcəyini formalaşdıran amildir;

2) Düşüncə və təxəyyül 12 yaşa qədər beynin işləməsinə ən çox təsir edən amillərdəndir;

3) Erkən bilik qəbulunun nəticələri qeyri-müəyyəndir,, bir dəfə həyata keçirildikdə, uşaqların gələcək hərəkətlərinin nümunəsi proqnozlaşdırıla bilər.

O, aşağıdakı Cədvəl 1-də göstərildiyi kimi insan beyninin erkən mərhələdə necə inkişaf etdiyi ilə bağlı qənaətlərə gəlib.

**Cədvəl 1. İnsan beyninin erkən mərhələdə inkişafı**

| Miflər | Faktlar |
|---|---|
| Beynin inkişafı tamamilə doğulduğunuz genlərdən asılıdır. | Erkən təcrübə və ətraf mühitlə qarşılıqlı əlaqə uşağın beyin inkişafında ən vacib amildir. |
| Uşağın beyni kollec tələbəsinin beynindən daha az aktivdir. | 3 yaşlı körpənin beyni böyüklərin beynindən iki dəfə daha aktivdir. |
| Körpə ilə danışmaq vacib deyil, çünki o, nə dediyinizi başa düşə bilmir. | Gənc uşaqlarla danışmaq, öyrənmənin uşaq üçün ən asan olduğu erkən kritik dövrlərdə dili öyrənmək üçün əsas yaradır. |
| Uşaqların beyin qabiliyyətlərini inkişaf etdirmək üçün xüsusi köməyə | Uşaqların ən çox ehtiyacı olan sevgi, qayğı və yeni təcrübələrdir, xüsusi diqqət və ya bahalı oyuncaqlar deyil. Danışmaq, mahnı oxumaq, oynamaq və |

| | |
|---|---|
| və xüsusi öyrədici oyuncaqlara ehtiyacı var. | oxumaq uşağın beynini formalaşdıran əsas fəaliyyətlərdəndir. |

**Mənbə:** Habib K., Soliman T., 2015 əldə edilən məlumatlara əsasən müəllif tərəfindən hazırlanmışdır, 2022 [23].

Sean Brotherson deyir: “Uşağın beyni yeni tikilmiş ev kimidir. Divarlar qalxıb, qapılar asılıb. Sonra mağazaya gedib elektrik naqilləri, açarlar, qoruyucu qutu və digər elektrik ləvazimatları alırsınız, bu ləvazimatları yeni evə gətirib yerə qoyursunuz. Onlar işləyəcəklər? Yəqin ki, yox. Əvvəlcə naqilləri bağlamalı və bütün əlaqələri bağlamalısınız. Bu, beynimizin formalaşma tərzinə çox bənzəyir”.

Yuxarıdakı faktlardan belə nəticəyə gəlirik:

- İlk təcrübə Uşaqların Beyin Strukturunda və nəticədə Uşağın düşüncə və davranış tərzində məcburi möhürə malikdir.
- İstənilən təcrübə nə qədər az olsa da, beynin quruluşuna hələ də öz təsirini göstərir, lakin 12 yaşa qədər təkrarlanan hərəkətlər yüksək effektivliyə malikdir və ömrü boyu təsirini saxlayır.
- Uşaq üçün təcrübə onun gözü ilə izlədiyi, qulaqları ilə eşitdiyi və hissləri ilə yaşadığı şeydir.

Yuxarıdakı üç faktı və bir uşağın 12 yaşına qədər təxminən 18.000 Saat Cizgi Filminə baxacağını yekunlaşdıraraq; bu o deməkdir ki, cizgi filmi insan beynini heykəlləndirən əsas amillərdən biridir, nəticədə əvvəlcədən müəyyən edilmiş düşüncə və davranış tərzi yaranır (Habib və Soliman, 2015).

Lakin bunu da qeyd etmək lazımdır ki, bütün cizgi fimlərə şamil edilməsi mümkün olan müsbət və ya mənfi cəhətlər yoxdur. Bunun səbəbi cizgi filmlərindəki surətlərin fərqli xüsusiyyətlərdə olması, janrları, persanajlar arasındakı dialoqlar və hətta cizgi fimlərdə çoxluq təşkil edən rənglərdir. Buna görə də aşağıdakı qeyd olunacaq fikirlər ziddiyyət təşkil edə bilər. Biz unutmamalıyıq ki, uşaqlara aşılanacaq təsirlər valdeynlərin cizgi film seçimi əsasında formalaşır.

### 1.3.1 Müsbət təsirlər

Məzmunu və forması ilə seçilən cizgi filmi bir sıra mənəvi, ruhi və sosial məsələlərə işıq sala bilər.

Cizgi filmlərinin əyləncəli, ibrətamiz, təxəyyülü inkişaf etdirən, uşaqların şəxsiyyətini təkmilləşdirən, özünü tanımasına kömək edən, uşaqlara sual və tənqid etmək, düşünmək imkanı verən, uşaqların daha erkən yaşda öyrənməsinə və başa düşməsinə töhfə verməklə, estetik zövqü də yaxşılaşdıran, mübarizə aparmağı öyrədən müsbət təsirləri mövcuddur (Aslan, 2020).

Öyrədici cizgi filmləri valideynlər üçün uşaqlarını böyütməyə çox yaxşı kömək edir (Лаврикова, 2021). Kiçik məktəb yaşlı uşaqlar tərəfindən xeyirxahlığı tərənnüm edən cizgi filmlərinə baxarkən növbəti məqamları vurğulamaq olar: uşaqların valideynlərlə cizgi filmlərinə baxarkən müzakirə və diskussiya üçün bir sıra yeni mövzular formalaşır, nitq inkişaf edir, kiçik yaşlı şagird hadisələrin ardıcılığını yadda saxlamağı və onların bir-biri ilə əlaqələndirməyi öyrənir, səslər və parlaq şəkilər dəyışərkən vizual və eşitmə təsirini inkişaf etdirir, öyrədici vaxt keçirilir, uşaq cizgi filmə baxarkən istirahət edir (Казначеева, 2020).

Sosial kontekstdə cizgi filminin məzmunu uşağa davranış normalarını aşılayır. Nəzakətli danışmaq, qocalara, kasıblara və xəstələrə kömək etmək, qrup halında işləməyi bacarmaq, valideynlərinə tabə olmaq kimi faydalı bacarıqlar öyrədir. Bunlarla yanaşı, yanğın, hündürlük, elektrik, nəqliyyat kimi baş verə biləcək təhlükələri göstərir, hətta cizgi filminin məzmununu cəlbedici şəkildə təqdim olunursa, uşaqlar bu mühüm bacarıqlara yiyələnir, təcrübələr qazanırlar (Волошина, 2019).

Düzgün cizgi filmləri uşaqlara müsbət sosial təsir göstərir, onlara yaşadıqları millətin və mədəniyyətin dəyərlərini, başqa ölkələrin sivilizasiyasını öyrənməyə imkan verir.

Cizgi filmləri yaxşı həyat dərsləri verir. Miçiqan Universitetində aparılan bir araşdırma, uşaqların məktəbdə oxumaqdan daha çox cizgi filmlərinə baxmağa

cəlb olunduğunu göstərdi. Bunun səbəbi cizgi filmlərinə və ya animasiyalı uşaq proqramlarına baxarkən əldə etdikləri öyrənmə təcrübəsidir. Rəng və cizgi personajları ilə birlikdə audio-vizual effektlər beyin üçün təkmilləşdirilmiş öyrənmə təcrübəsini bir araya gətirir. Bu, ənənəvi sinif yanaşmasından daha yaxşı öyrənmə təcrübəsidir. Üstəlik, cizgi filmləri heyrətamiz həyat dərsləri verir. Cizgi filmlərinin öyrətdiyi real həyat dərslərindən bəziləri bunlardır:

- Komanda lideri necə olmalıdır;
- Bir cəmiyyətin bir hissəsi olmaq;
- Necə əsl dost olmaq olar;
- Və həyatda necə qəhrəman olmaq olar;
- Cizgi filmləri sosial şüurlu mesajlar daşıyır.

Hannuch (2016) görə, cizgi film əyləncə, gülüş mənbəyi kimi görünür, lakin müvafiq cizgi filmi yaxşı əxlaq öyrədir və müxtəlif dəyərləri təşfiq edir, onlara həyatın özü haqqında mesaj çatdırır. Məsələn, dostluq və sədaqət əhəmiyyətini ifadə edir və uşaqlara da bnu aşılayır (Beaino, 2021).

İndi uşağın yaradıcı və koqnetiv qabiliyyətlərini inkişaf etdirmək üçün internetdə sərbəst mövcud olan bir çox programlar hazırlanmışdır. Məsələn, uşaq kiçik yaşlarından əlifbanı öyrədən cizgi filmlərə, müəyyən bir hərfi təmsil edən obyektlərin rəsmləri ilə baxa bilər. Buna misal olaraq, iki və ya üç yaşından əlifbanı öyrənməyə kömək edən "Mavi Traktor" programını göstərmək olar (Васильев, 2016). Animasiyalar körpələrin dil inkişafına müsbət təsirlər göstərir, çox qısa müddətdə lüğətlərinin zənginləşməsinə səbəb olur (Perween və Hasan, 2020). 'Funtik' adlı rus cizgi filmində bir çox müsbət emosiyalar mövcuddur. Uşaqlarda həzz, sevinc, yüksək əhval-ruhiyə ötürür (Лаврикова, 2021).

### 1.3.2 Mənfi təsirlər

Cizgi filmlərdə uşağı zorakılığa yönəltmək, şişirdilmiş şiddət elementləri, reallıqdan uzaklaşdırmaq, riskli davranışların artması və təhlükəsiz davranışların azalması, ekran asılılığı kimi mənfi təsirlər mövcuddur (Aslan, 2020).

Bu gün media uşaqların tərbiyəsinə, mentalitetinə təsir edə biləcək ən güçlü vasitədir. Günümüzdə televiziya və mobil rabitə ön plana çıxmışdır. Bu alətlər vasitəsilə uşaqlar yaşlarına, dünyagörüşünə uyğun olmayan məlumatları öyrənir və müxtəlif cizgi filmləri, animasiya, xüsusən də televiziyada göstərilənlər uşaqların davranışlarında mənfi dəyişikliklərə səbəb ola bilirlər (Choriyeva, 2020).

*İstək və məcburiyyət.* İndi cizgi filmlərinə baxmaq ciddi psixoloji problemə çevrilmişdir. Uşaqlar televizorda, smartfonda və ya planşetdə cizgi filmlərinə baxmağa həddən artıq həvəslidirlər. Bu günün ən aktual problemi odur ki, onlar darıxanda oynamaq əvəzinə rəqəmsal cihazlara o qədər müraciət edirlər ki, bu, onlar üçün bir növ məcburiyyətə çevrilir. Hətta valideynlər övladlarının bu həvəsindən istifadə etməyə başlayıblar, çünki cizgi filmlərinə baxarkən uşaqları qidalandırmaq daha asandır.

Zərərli cizgi filmlərinin aşağıdakı əlamətləri fərqləndirilir:

- Cizgi filmində uşağın həyatı üçün təhlükəli olan, real həyatda təkrarlanması məsləhət görülməyən və təhlükəli olan davranışlar nümayiş etdirirlər;
- Çox vaxt cizgi filmlərində qorxunc, yöndəmsiz personajlara rast gəlmək olar;
- Qeyri-standart gender-rol davranışının formaları yayımlanır, yəni kişi personajlarında qadınlıq təzahürləri var, uyğun olmayan paltarlar (paltar, yubka) geyinirlər, öz cinsinə maraq göstərirlər. Qadın personajlar, isə onlara uyğun olmayan geyim geyinirlər (Амеликова, 2019).
- Başqa insanlara, bitkilərə, heyvanlara qarşı hörmətsiz münasibətin təzahür etdiyi səhnələri göstərirlər (Бурова, 2018).

*Zorakılığa təşviq.* Son pediatrik araşdırmalar cizgi filmlərində şiddətin yüksək səviyyədə olduğu bildirmişdir. Bir çox məşhur cizgi filmlərində personajlar tez-tez bir-birlərini vururlar və ya bir-birlərini hündürlükdən yıxırlar. Bu, bu hərəkətlərin heç bir real nəticələrinin olmadığını, heç kəsin incimədiyini

və ya ağrı hiss etmədiyini göstərir ki, bu da öz növbəsində uşaqları real həyatda zorakılığa sövq edir. Çünki onlar nəyin praktiki və nəyin yararsız olduğuna qərar vermək üçün müdrikliyə malik deyillər.

Cizgi filmlərin mənfi təsirinə personajların aqressivliyi, şiddət, döyüş və qan səhnələri, xeyir və şər arasında aydın sərhəd qoyulmaması, mənfi personajların cəzasız qalması, yanlış dəyərlərin inkişafı, həyata dəyər verilməməsi, məsələn, 'Tom və Cerri' cizgi filmlərində tez-tez bir personaj əvvəlcə ölür, yenidən həyata qayıtması daxildir (Казначеева, 2020).

Həddindən artıq cizgi filmlərinə baxmağı sevən uşaqların emosional və zehni problemlərlə üzləşmə ehtimalı daha yüksək olur.

Müasir cizgi filmlərinin əksəriyyəti pis rəftar, ərköyünlük, qəddarlıq, eqoizm, tənbəlik ilə xarakterizə olunan davranış nümunəsini göstərir. Albert Bandura 20-ci əsirin 60-cı illərində araşdırmalar apararaq sübut etmişdir ki, uşaqların televiziyada izlədiyi qəddarlıq, zorakılıq səhnələri mənfi xüsusiyyətləri yaradır, agressiyaya səbəb olur (Лаврикова, 2021).

*İnamsız davranış.* İtaətsizlik və empatiyanın olmaması cizgi filmlərinin başqa bir yan təsiridir. Məsələn, cizgi filmindəki personaj intizamsızdırsa və valideynlərinə qarşı çox kobuddursa, uşaqlar bunu təqlid etməyə başlaya bilirlər. Bundan əlavə, nadinc və səs-küylü cizgi filmi personajları hansı davranışı seçəcəyinə dair mülahizələri olmayan bu kiçik uşaqlar üçün mənfi rol modeldirlər.

Cizgi filminin uşağa mənfi təsirinin başqa növləri mövcuddur: şıltaqlıq, ağlaqlıq, müxtəlif qorxular, əsəbilik, yuxu pozğunluğu (Клюкина, 2019).

Uşaqlar praym-taymda, yəni saat 8 dən 11 qədər yayımlanan diger televiziya proqramlarına nisbətən cizgi filmində göstərilən zorakılığa daha çox məruz qalırlar (Perween və Hasan, 2020).

Cizgi filmlərində qeyri-səlis hərəkətlər və çox tez-tez sürətli danışıq tempi real ünsiyyətə ziddir, ona görə ki, uşaq dodaqlarının hərəkətlərini dəqiq tuta bilmir, bu da aktiv lüğətin inhibəsinə və passivliyin inkişafına səbəb olur. Buna görə də, məktəbəqədər yaşda uşaqların inkişafı üçün əlverişli şərait yaratmaq

xüsusilə vacibdir, çünki o dövrdə nitq yenicə formalaşmağa başlayır (Газиева, 2020).

Zorakılıq fenomeni cizgi filmlərinin ən çox müzakirə olunan mövzusudur. Xüsusilə hədəf auditoriyası oğlanlar olan cizgi filmlərində zoraki məzmuna daha çox rast gəlinir. Effektlər və şiddət səhnələri ilə uşaqların diqqətini daha uzun müddət cəlb etməyi hədəfləyən şirkətlər, bu səhnələrin modelləşərək öyrənməyə açıq olan uşaqlara necə təsir edəcəyi göz ardı edilir (Aydın, 2018).

Ən kədərli uşaqlar həyatda hər şeyin tez və asanlıqla əldə olunacağına inanaraq reallıqdan uzaq böyüyən uşaqlardır. Bu səbəbdən də daima etiraz əhval-ruhiyyəsində olurlar və digər uşaqlarla nisbətdə daha döyüşkən, aqressiv olurlar. Beləliklə, medianın mənfi təsirini aşağdaki formada ümumiləşdirmək olar:

- Uşaqların diqqətini cəlb etmək üçün parlaq rənglərdən istifadə edirlər. Bu gün işlənmiş bütün müasir cizgi filmləri çox parlaqdır. Rənglər o qədər canlıdır ki onlar reallıqdan çox uzaqdırlar. Bu, uşaqların mentalitetinə mənfi təsir göstərir. Yəni, uşaq hər şeyi reallıqda elə parlaq rənglərdə görmək istəyir ki, zaman keçdikcə onlarda bunula bağlı olaraq aqressiya yaranır.
- Fərqli yüksək və səs-küylü səslər. Müasir cizgi filmləri yüksək, xırtıldayan səslər və səs-küylərlə hazırlanır. Bu səslər, xüsusilə, kiçik uşaqlarda qorxuya səbəb olur. Bir çox uşaq ağlayır, tək qalmaqdan qorxur.
- Uşaqların yaşı və mentaliteti ilə süjet və məzmunun uyğunsuzluğu. Bu gün əksər cizgi filmlərində süjet mürəkkəbdir və yaşına uyğun olmur. Eyni zamanda, bəzi cizgi filmlərinin sujeti tez və sürətlə inkişaf edir. Nəticədə uşaqlar hadisələrin qarşılıqlı əlaqəsini dərk edə bilmir və onların təsəvvürünü çaşdırır. Ən əsası isə süjetin və məzmunun mürəkkəbliyi cizgi filminin tərbiyəvi əhəmiyyətini aşağı salır. Uşaq mənfi və müsbət personaj arasındakı fərqi başa düşə bilmir (Choriyeva, 2020).

Uşaqlar inkişaf xüsusiyyətlərinə görə televiziya mövzusunda çox seçici və şüurlu ola bilmirvə onlar üçün hazırlanan verlişlərlə yanaşı, xəbərlərdən yarışmaya, reklamdan seriala qədər ekranda göstərilən bütün proqramları

izləyirlər. Ancaq baxdıqları verlişdən asılı olmayaraq, televiziya qarşısında psixi və fiziki cəhətdən passiv qalırlar. Televiziya birtərəfli sosiallaşma vasitəsi olduğundan, düşünmə, sorğu-sual kimi bacarıqları da korlayır  (Aydın, 2018).

"Cənub Parkı" cizgi filmi yeniyetmə üçün mənasız, eyni zamanda təhlükəli və qətli əks etdirən səhnələrin olmasını mənfi təsir kimi nümunə göstərmək olar. Yetkinlərin nöqtəyi-nəzərindən bu cizgi filmi böyüklərin problemlərinin parodiyasıdır. Yəni İraqdakı müharibə, narkotiklər, irqçilik, dini fanatizm, beynalxalq müharibə və cəmiyyətin digər qlobal problemləri əhatə edir (Васильев, 2016). Digər 'Futurama' əcnəbi cizgi filmi yeniyetmənin psixikasına qismən mənfi təsir göstərə bilər. Bu cizgi filmində kanalizasiyada yaşayan mutantların, tək gözlü sikloplar və ya Dekapod-10 planetindən xərçəngə bənzər yadplanetli olan Dr. Zoibera kimi bir personajdır daxildir.

Müasir animasiyalarda məntiqsiz, qəddar və açıq şəkildə uşaqların baxması üçün yararsız olan cizgi filmləri çəkilir. Bunlara anime, bəzi DreamWorks istehsalı (Shrek, Madaqaskar) və Cartoon Network studiyalarında olan cizgi filməri aiddir. Çünki onların yumor, süjet və ssenarisi böyüklər üçün nəzərdə tutulmuşdur və uşaqlar üçün belə animasiya, qəribə zarafatlar onlar üçün anlaşılmaz olur,  mənfi təsir göstərir (Богомолова, 2020).

## 1.4 Cizgi filmlərinin psixikaya təsiri ilə bağlı tədqiqatların təhlili

Cizgi filimlər haqqında müxtəlif psixoloji tədqiqatlar aparılmışdır. Bəzi tədqiqatları nəzərdən keçirək.

V.A.Qrozinanın 2021-də "Müasir cizgi film və oyunlarının uşağın psixoloji sağlamlığına və inkişafına təsiri" adlı araşdırmasında məktəbəqədər yaşlı uşaqların valideynləri arasında apardığı sorğunun nəticələrinə görə, 700 uşaqdan 623-ü hər gün cizgi filminə baxır, eyni zamanda cizgi filmə baxmağı dayandırmağa cavab  olaraq uşaqların 64%-i mənfi davranış nümayiş etdirirlər. Təbiətlə bağlı olan cizgi filmlərinə nisbətən az sayıda uşaq üstünlük verir. Uşaqlar 21%-i onların parlaqlığının olmaması səbəbindən daha az baxılır. Valideynlərin

74%-i xeyirxah, sovet cizgi filmlərinə və ya Disney fimlərinə üstünlük versələr də, adətən uşaqların maraqlarına tabə olduqları müşahidə edilmişdir. Uşaqların cizgi filmlərindəki üstünlüklərin tədqiqinin nəticələrinə əsasən belə bir qənaətə gəlinib ki, valideynlərə psixoloji və pedaqoji maarifləndirmənin aparılması məqsədəuyğundur (Грозина, 2021).

Moskvina, Petrova, Paxomov və Morozovun (2019) "Cizgi filmlərinə baxmağın uşağın sağlamlığına təsiri" adlı araşdırmasında 3-cü sinif şagirdən 120 nəfər arasında sorğu aparılılmışdır. Bunlardan 93% dostları ilə gəzmək əvəzinə cizgi filmlərini seçirlər, 69% yuxusuzluqdan əziyyət çəkir, 70 şagirddən 67-i cizgi filmlərindən çox narahatdır, bununla əlaqədar olaraq yuxuya getmək problemi yaşayır, 67 nəfərdən 60-ı cizgi filmlərinə baxarkən daim əllərinin və qolun qabaq tərəfində qaşınma hiss etdiklərini bildirib, onikofagiyadan, 67-dən 65-i baş ağrılarından əziyyət çəkir. Bu araşdırmada aşkarlanıb ki, cizgi filmlər uşağın təfəkkürünə, sağlamlığına, inkişafına mənfi təsir göstərə bilər (Москвина и т.д., 2019).

Uşaqların valideynləri arasında Burovanın və Pişkunun (2018) "Cizgi filmlərinin uşaqların psixikasına təsiri" mövzusunda keçirilən *sorğuda,* cavablar iki qrupa ayırıb. Bir qrup valideyn hesab edir ki, Uşaq və Karloson, Timsah Gena və Çeburaşka, Prostokvaşınodan üçlü kimi köhnə sovet cizgi filmləri uşağın psixikasına müsbət təsir edir və uşaqlara nizam-intizam, xeyirxahlıq öyrədir. Valideynlərin başqa bir qrupu isə hesab edir ki, yaxşı cizgi filmləri indi nadirdir və çoxusu mənfi təsirli cizgi filmlərə baxırlar (Бурова, 2018).

Sinkin 2016-da "Cizgi filminin uşaqlara təsiri" adlı tədqiqatında 3-6 yaş qrupunda olan uşaqların valideynləri arasında aparılan sorğuya əsaslanan təsviri tədqiqatdır və 100 valideyn təsəadüfi olaraq seçilmişdir. Tədqiqatın nəticəsinə əsasən, valideynlərin yüzdə 57-i cizgi filmin uşaqların dil inkişafına mənfi təsir göstərdiyini bildirir, buna baxmayaraq, valideynlərin %64-ü cizgi filmlərin uşaqların sürətli zehni inkişafına müsbət təsir etdiyini bildirirlər. Valideynlərin əksəriyyəti uşaqların cizgi filminə daha çox maraq göstərməsi ilə razılaşır.

Araşdırmanın nəticəsi olaraq uşaqlara cizgi filmlərin yüksək təsiri müəyyənləşdirilmişdir. Çünki onların diqqəti digər oyunlar və fəaliyyətlərdə deyil, cizgi filmlərdədir. Onlar nəinki cizgi film personajlarını təqlid edirlər, həm də onlara baxdıqda aqressivlik nümayiş etdirirlər. Nəticədə valideynlər uşaqların cizgi filmlərin müsbət təsiri ilə razı olmamışdır (Singh, 2016).

Vasaqina və Zorinanın (2017) "10-11 yaşlı uşaqların psixo-emosional vəziyyətinə cizgi filmlərin təsiri" məqaləsində tədqiqatda on qız və on oğlan olmaqla 20 nəfər məktəbli daxil edilib. Uşaqlara iki cizgi film nümayiş etdirildi: Bir dayan və Tom və Cerri. Tədqiqat iştirakçıları təsadüfi olaraq iki qrupa bölündü. Birinci qrupa əvvəlcə Bi dayana, sonra isə Tom və Cerriyə baxdırıldı. İkinci qrupa da tərs qaydada iki cizgi filmi göstərildi. Hər cizgi filminə baxdıqdan sonra şagirdlərin nəbzi ölçüldü. Eksperimental tədqiqat nəticəsinə görə, Amerikan cizgi filminə baxdıqdan sonra məktəblilərin nəbzi artır. Tibbi məlumatlara görə, 8-14 yaşlı uşaqlar üçün normal nəbz dərəcəsi bir dəqiqədə 60-80-dir, lakin Tom və Cerri cizgi filmi seyrdən sonra, uşaqların ürək döyüntüsü yuxarı limitə yaxınlaşmışdır. Əldə edilən nəticə uşaqların emosional vəziyyətində dəyişiklik, onların qəzəbinin və narahatlılığın artması kimi şərh olunur. Uşaqlara təkcə media əsərlərinin personajlarının aqressiv hərəkətlərinin olması faktı deyil, həm də personajlar arasındakı münasibətin xüsusiyyətləri, qəddarlıq dərəcəsi və personajlar arasında rəqabət olmasından təsirlənir (Васягина, 2017).

Şeşen və Ertürkün (2018) cizgi filmlərindəki zorakılığın uşaqlara təsirini anlamaq məqsədi daşıyan bu araşdırma uşaq bağçasında 5-7 yaşlı 15 uşaq üzərində aparılıb. 9 qız və 6 oğlan ilə üzbəüz müsahibə və müşahidə üsulları ilə aparılan bu araşdırmada müəllimləri vasitəsilə şagirdlərə bəzi suallar verilib. Uşaqlar baxdıqları cizgi filmində qorxduqları heç bir hissə və ya yer olmadığını bildirirdilər. Lakin bir neçə qız tələbənin cizgi filminə baxarkən cizgi film personajlarının bir-birinin vurduqları səhnələrə baxmaq istəmədiyi görüldü. Cizgi filminə baxan uşaqların onlara verilən suallara verdikləri cavabları nəzərə alaraq, cizgi filmindəki zoraki obrazı, bəyənmədikləri və bu vəziyyətdən narahat

olaraq bunu dilə gətirdikləri görünürdü. Uşaqlar üçün cizgi filmləri əvəzolunmaz və getdikcə daha vacib əyləncə vasitəsinə çevrilir, ancaq uşaqların həddən artıq cizgi filmə baxması aqressiya və asılılıq yaratma riskini artırır. Cizgi filmləri bütün yaş, cinslər və bütün sosial-iqtisadi səviyyələrdə olan uşaqlara təsir göstərir (Şeşen və Ertürk, 2018).

Üstündağ ve Şenolun 2021-də “Cizgi filmlərində şiddət və qorxu elementlərinin təhlili: TRT Uşaq Kanalı nümunəsi”adlı araşdırmasında TRT Uşaq Kanalında yayımlanan cizgi filmlərində şiddət və qorxu elementlərinin tezliyinin olduğu müəyyən edilir. 2020-ci ilin may-iyun aylarında TRT Uşaq Kanalında yayımlanan cizgi filmləri arasında sadə təsadüfi seçmə üsulu ilə. "Doru", "Ozi","Egey və Gaga",“İbi”, “Maysa və Bulud”, “Ağıllı Dovşan Momo”,"Balaca quzu",“Xoşbəxt oyuncaq mağazası”, “Hapşuu”, “Elifin arzular" və "Ciciki" adlı cizgi filmləri müəyyən edilmişdir. Cizgi filmlərin yer aldığı iş qrupunda bütün bölmələr sonuna qədər izlənir. Onlarda, şiddət və dəhşət elementlərinə nə qədər tez-tez rast gəldiklərini müəyyən etmək araşdırma məzmununun bir hissəsidir. Həmçinin, mövcud cizgi filmləri qorxu baxımından qiymətləndirilir. Cizgi filmlərinin mətnlərində səs, hərəkət, işıq və sürreal qorxu elementlərinin olduğu, səsli qorxu elementlərinin yer aldığı müəyyən edilib. Cizgi filmləri müşahidə etdikdə əsas qorxu elementləri hansı formada yaradıldığını və necə uşaqlara ötürülürdüyü aydınlaşdırılıb. Qəfil sərt hərəkətlər, birdən-birə gizləndiyi terdən çıxan personajlar, qorxulu səs effektləri, qışqırıqlar, qaranlıq, kölgə oyunları, sürreal personajlar, sirli hadisələr və ekstremal sehrli əşyalar kimi elementlər cizgi filmlərin məzmununda tapılıb (Üstündağ ve Şenol, 2021).

Güngör və Çolakın (2019) məqaləsində Türkiyə Statistika Təşkilatı (TÜİK) və Radio Televiziya Üst Kurulunun (RTÜK) (2013) 6-15 yaş arası uşaqlar üzərində apardığı araşdırmaya görə qrupdakı uşaqların 92.5%-i , yəni orta hesabla hər 10 uşaqdan 9-u televizora baxır. Cizgi filmləri 6-15 yaşlı uşaqlar arasında 93.8% ilə ən çox baxılan program növüdür. Bundan əlavə, eyni araşdıırmaya görə, ailə üzüvlərinin birlikdə gördüyü fəaliyyətlərdə 59.4% ilə televizora baxmağın

birinci yerdə olduğu görülür. Araşdırma zamanı bir çox təsirlər müşahidə olundu. Bunlar - cizgi filmlərinin uşaqlara emosional və sosial inkişaf təsiri, yəni uaqların mədəni və sosial dəyərlərinin inkişafına dəstək verir; psixomotor inkişafına təsiri yəni, animasiyada ritmik hərəkətlər, parodiyalar, rəqslər kimi hadisələr motor bacarıqlarının inkişaf etdirir; Dil inkişafına təsiri mövcuddur. Cizgi filmlər uşaqların inkişafında böyük rol oynayır. Nəticədə cizgi filmlərin iki növ təsiri müşahidə olunur - müsbət və mənfi təsirlər. Müsbət təsiri dedikdə düzgün, yaxşı davranış, mənfi təsir dedikdə isə şiddət, zorakılıq nəzərdə tutulur (Çolak, 2019).

Anvaar, Sayeda, Mavaheb və Hend (2021) “İbtidai məktəb uşaqlarındaki cizgi filmi şiddəti və aqressiv davranış arasındaki əlaqə” adlı tədqiqatda 6-12 yaş arası, hər iki cinsdən olan 400 şagirdən ibarət çoxmərhələli təsadüfi seçmə nəticəsində, strukturlaşdırılmış müsahibə aparılıb. Araşdırmanın nəticələri göstərir ki, ibtidai sinif şagirdlərinin yarısından az hissəsi cizgi filmi personajlarını təqlid edir. İbtidai sinif uşaqları arasında cizgi filminə şiddət və agressiv davranış arasında böyük əlaqə var. Çünki tədbiq edilən ibtidai məktəb uşaqlarının dördə üçündə cizgi filmində şiddətə müsbət münasibət bəsliyirdi. İbtidai məktəbə gedən uşaqların yarıdan çoxunda şiddətli aqressivlik, üçdə birinin isə orta səviyyədədir. Bundan əlavə, uşaqların cizgi filmdəki zorakılığa münasibəti ilə onların aqreessivlik səviyyələri arasında çox əhəmiyyətli müsbət korrrelyasiya vardır (Anwaar, Sayeda, Mawaheb and Hend, 2021).

Mazurova M.V. və Sokolova M.V. (2015), cizgi filmlərinin uşaqların oyununa təsiri ilə bağlı araşdırmada Vinx və Hörümçək adam cizgi filmlərinə xüsusi qiymət verirlər. Vinx cizgi filmində 104 seriyda təxminən 158 personajdan 13 bədxah və 24 canavar var. Hörümçək adam cizgi filmində 75 seriyadan 10-a yaxın qəhrəman, 23 bədxah, ümumilikdə 75-ə yaxın personaj var. Vinx cizgi filminin əsas personajları 15-17 yaşlı parlaq, model görünüşlü qızlardır. Onların düşmənləri çoxdu. Hörümçək adam Peter Parker 21 yaşında, tələbədir, baş qəhrəmandır. Tədqiqatçılar belə nəticəyə gəlirlər ki, mınfi personajların aqressiv davranışının daimi olmasının mənfi təsirindən əlavə, başqa bir cəhət də var ki,

əsas personajların yaşı, onların görünüşü və məşğuliyyəti çox vaxt məktəbəqədər və ibtidai məktəb yaşlı uşaqlar üçün anlaşılmazdır (Семанюк, Ершова, Оконечникова и Муртазина, 2017).

Yetim ve Sarıçamın 2016-da "Cizgi film proqramlarının uşaqlara təsiri haqqında ailələrin bilik və məlumatlılıq səviyyələri araşdırması" adlı tədqiqatda, uşaqları Kütahyanın mərkəz rayonundakı məktəbəqədər təhsil müəssisələrinə təhsil alan ailələrlə aparılıb. Məlumatların toplanması mərhələsində tədqiqatçılar tərəfindən müsahibə və müşahidə forması yaradılmışdır. Ailələr seçilərkən tədqiqat məqsədi ilə rahat seçmə texnikasından istifadə edilmiş və 25 ailə seçilmiş, 2 ata 23 ana tədqiqata qoşulmuşdur. Araşdırmada təhlil edilən cizgi film proqramlarının uşaqlar üzərindəki müsbət təsirlərinindən çox mənfi təsirləri olduğunu, uşağa zərər vura biləcəyi və anketə qatılan ailələrin cizgi film programları haqqında böyük bir qisminin məlumatı olmadığı ifadə edilmişdir. Ona görə uşaqlara çox müdaxilə də edə bilmirlər. Bununla birlikdə tədqiqatda əldə edilən nəticələrdən bəlkə də ən vacibi valideynlərin bir-birləri ilə xüsusəndə uşaqları ilə yaxşı vaxt keçirməli olduqlar qənaətinə gəlindi (Yetim və Sarıçam, 2016).

Beainonun (2021) cizgi filmlərinin 3 yaşdan 10 yaşa qədər Livanlı uşaqlar təsiri ilə bağlı tədqiqat cizgi filmlərini seyr edən 5 yaşdan 15 yaşdan ibarət 200 uşaq üzərində edildi. Əvvəlcədən hazırlanmış sınaqdan keçirilmiş *anket* 4 ay ərzində məlumatların toplanması üçün istifadə edilmişdir. Nəticələr göstərdi ki, uşaqların 33%-i zorakılıq davranışlarında nəzərə çarpacaq artım nümayiş etdirib. Uşaqların 39%-i şiddətli və zoraki olmayan animasiyalara baxmağı xoşlayır. Uşaqların 81%-i yaradıcı mövzulara maraqı olur və uşaqların %73-ü digər insanlara qarşı emosional və həssas olurlar. Aşkar edilmiş davranış dəyişiklikləri mənfi və müsbət hesab edilmiş və əksəriyyəti animasiyadaki göstərən personajların hərəkətlərini təqlid etmişdir [18].

Shailes, Bhaqvan, Salil, Sanjay və Rajendraya görə (2016), uşaqların cizgi filmlərinə baxmağa başladığı vaxtdan uşaqların 81%-nin yaradıcı mövzulara

maraq göstərdiyini, həmçinin uşaqların 73%-nin başqalarına qarşı həssas olduğunu göstərir.

Lulsius, Minulesku və Marikutounun (2020) araşdırmasında mediaya maraq artdığına görə, uşaqlar valeh olur, media ilə tam qarşılıqlı əlaqəyə cəlb olunduğunu bildirilib. Uşaqların yalnız 60-70-ci illərdə deyil, həm də indiki dövrdə də televizor qarşısında gündə 2 saat vaxt keçirirdilər. 8-12 yaşlı uşaqların digər mənbələrdən məsələn, youtube, televizor, DVD qarşısında keçirdikləri vaxt gündə orta hesabla 2 saat 26 dəqiqə olaraq qalır (Lulciuc, Maricutoiu və Minulescu, 2020). Stoneman və Brody (1981) müəyyən etdi ki, uşaqlar ildə təxminən 20.000 cizgi filminə məruz qalırlar və onlar məktəbəqədər təhsil müəssisəsini bitirəndə 13.000 şiddət mövzulu cizgi filminə baxmış olacaqlar. Uşaqların məruz qaldığı kütləvi informasiya vasitələrinin məzmununun çoxunun qeyri-real, stereotip və bəzən antisosial xarakterlər ehtiva etdiyinə əsaslanır (Olasinde,2018).

Bu tədqiqatlardan ümumi nəticəyə gəlsək, cizgi filmlərin iki növ təsiri müşahidə olunur: müsbət və mənfi təsirləri. Bəzi uşaqlar müəyyən cizgi filmlərinə baxdıqdan sonra mənfi davranışlar nümayiş etdirir, yuxusuzluqdan, onikofagiyadan, baş ağrılarından əziyyət çəkir və uşaqların dil inkişafına mənfi təsir göstərdiyini bildirilir Onlara baxdıqda aqressivlik nümayiş etdirirlər.

Başqa qrup isə cizgi filmləri uşağın psixikasına müsbət təsir edir və uşaqlara nizam-intizam, xeyirxahlıq öyrədir. Cizgi filmlərinin onlara sürətli zehni inkişafına müsbət təsir etdiyini bildirirlər.

Cizgi filmin uşaqlara təsiri mənfi və müsbət hesab edilmiş və əksəriyyəti animasiyadaki göstərilən personajların hərəkətlərini təqlid etdiyi müşahidə olunur.

# II FƏSİL. CİZGİ FİLMLƏRİNİN MƏZMUN XARAKTERİSTİKASI VƏ PERSONAJLARIN UŞAQLAR TƏRƏFİNDƏN QAVRANILMASININ PSİXOLOJİ TƏHLİLİ

## 2.1. Media məhsullarının uşaqlar tərəfindən qavranılmasının spesifik xüsusiyyətləri

Erkən yaş (1-3 yaş) kiçik bir uşağın inkişafında əhəmiyyətli dəyişikliklər dövrü hesab olunur. Erkən yaşda intellektual inkişafın bütün proseslərinin ən dominantı, aparıcısı qavrayışdır.  Kifayət qədər yaxşı inkişaf etmişdir, lakin hələ də şüursuz bir xarakter daşıyır. İnkişaf psixoloqlarının nöqteyi-nəzərindən cizgi filminin qavranılmasının xüsusiyyətləri və onun inkişaf potensialı ilk növbədə uşağın yaşına uyğunluğu ilə müəyyən edilir (Темирканова, 2018).

İddiaya görə, azyaşlı uşaqlar reallıq və fantaziya arasında incə xətt haqqında tam anlayışa malik deyillər. Bu iddia ilk dəfə 1929-cu ildə Jean Piaget tərəfindən səsləndirilimişdir (Sarman, 2022).

Cizgi filmlər 20-ci əsrdən bəri uşaqların inkişafının bir hissəsi olmuşdur. Uşaqların əksəriyyəti səhərlər məktəbə getməzdən əvvəl, evə gələn kimi, dərsdən sonra, həftə sonu, səhər, axşam cizgi filmlərinə baxır, uzun filmləri, xəbərləri və qorxulu şəkilləri sevmirlər. Eyni zamanda, məktəbəqədər yaşda uşağın dəyər qurğuları ekranda baş verənlər adekvat qiymətləndirmək üçün kifayət qədər formalaşmamışdır (Голубь и Ермиливна, 2018).

Televiziya bütün dünyada ən güclü və təsirli ünsiyyət vasitəsidir. Kütləvi informasiya vasitələri və xüsusən də televiziya gənc uşaqların çox erkən yaşlarından öyrənmə prosesində çox mühüm, həyati rol oynaya bilər (Shanthipriya və  Prabha, 2021).

Bütün dünyada cizgi filmlərinin uşaqlar üçün ən təhlükəsiz, əyləncəli olduğu ümumi qəbul edilir. Onlar səkkiz-on yaşlarında böyük həvəslə cizgi filmlərinə baxırlar, onlara daha çox aludə olurlar. Üstəlik, cizgi filmlərinin əksəriyyəti yaş qrupuna uyğun materialdan ibarət deyil, hətta valideynlər uşaqlarına heç bir məhdudiyyət olmadan cizgi filmlərə baxmağa icazə verirlər. Eşitmə zəifliyi olan

uşaqların müxtəlif əyləncə növləri ilə məşğul olmaq imkanı az olduğundan, cizgi filmlərə daha çox vaxt sərf edirlər (Batool və  Siddique, 2021).

Uşaqlar öz daxili mənliklərini qidalandırmaq üçün xəyal qurmağı bilməlidirlər. Onlar əsl dünya ilə əlaqə qurmaqda çətinlik çəkməsini əsasən həyatın ilk illərindən ikinci ilinə qədər görə bilərik. Çoxlu televiziya və cizgi filmlərə baxmaq reallıqdan uzaqlaşaraq və  xəyali dünyalara dalmağına səbəb ola bilər.  Eyni zamanda həddindən artıq televiziyaya, xüsusən də cizgi filmlərə baxmaq vəziyyəti pisləşməsinə və uşaqların fantaziyaya meyilli şəxsiyyətə çevrilməsinə səbəb olacaqdır (Beaino, 2021).

Kiçik uşaqlar hələ cizgi filmi personajlarının hərəkətlərini düzgün təhlil etmək, qavramaq ixtiyarında olmurlar. Onlar ona tədqim olunan məlumatı tez qavramağa meyllidirlər və beləliklə onlara  təqdim olunan informasiya heç bir təhlilə məruz qalamdan ilkin formada qavranılmış olur (Козлова и Деркунская, 2018).

Uşaqlar cizgi filmlərindəki fiziki zorakılıq kimi gözə dəyməyən simvolik zorakılığın fərqinə varmır. Buna görə də, "onlar belə olur" düşüncəsi ilə dostlarına simvolik zorakılıq tətbiq edə bilirlər. Yəni, şagirdlər cizgi filmində gördükləri zorakı davranışları  tətbiq etmirlər, amma dostlarına təzyiq edərək "sən bacarmazsan" deyə dostunu oyundan qovmaq, dostunu aşağılamaq kimi davranırşlar içində ola bilərlər (Şeşen və Ertürk, 2018).

Cizgi filmin qavranılmasını ehtiva edən estetik təəssüratlar həmişə uşaqların duyğuları və hissləri ilə bağlıdır. Duyğuların qeyri-müıyyənliyi, mürəkkəbliyi, təcrübələrin dərinliyi və müxtəlifliyi, əlbəttə ki, uşağın  həm emosional sferasını zənginləşdirir, həm də animasiya əsərlərinin qavranılması koqnetiv fəaliyyətini və maraq oyadır (Волошина, 2019). Cizgi filmlərdəki istifadə olunan açıq rənglər uşaqların diqqətini cəlb etmək üçündür.

Çox vaxt valideynlər övladlarının kifayət qədər təəssurat almadıqlarına dair yanlış təsəvvürə malikdirlər. Burada yadda saxlamaq lazımdır ki, məlumatın keyfiyyəti onun kəmiyyətindən daha çox rol oynayır. Səthi qavrama və fərdi

təəssüratların dəyərinin azalması həm təfəkkürə, həm də nitqə təsir göstərir. Uşaq psixoloqlarının fikrincə, uşaq məlumatı çoxsaylı obrazlar şəklində qəbul edir, ondan sonra öz dünya modelini qurur, onları öz üzərində sınaqdan keçirir, sonra cəmiyyətə daşıyır (Клюкина, 2019).

Əksər hallarda valideynlər övladının sevimli proqramlarına nəzarət etmirlər. Buna görə də, 8-dən 11 yaşa qədər dövrdə ekranda göstərilənlər də daxil olmaqla həyat hadisələri ətrafında yerin vizual emosional qavranılması baş verir (Васильев, 2016).

Uşaqların şüurunda formalaşan qavrayışları dəstəkləyə bilmiyən çoxlu sayıda personajların uşaqların gələcəyini formalaşdıracaq psixoloji və sosial strukturlarına mənfi təsir edəcəyi aydındır (Parlakyıldız, 2019).

## 2.2. Müasir cizgi filmlərinin məzmun və sujet xəttinin səciyyəvi xüsusiyyətləri

Hazırda uşaqların asudə vaxtını keçirmək üçün çoxlu əyləncə üsulları mövcuddur, bunların arasında cizgi filmə baxmaq ən çox bəyənilləndir (Wijethilaka, 2020). Çağdaş uşağın müasir dünyada media məkanında uzun müddətli təsirində qalması həyatını ayrılmaz hissəsinə çevrilib (Декман, 2021).

Animasiya müasir uşaqlığın ayrılmaz bir hissəsinə çevrilir, bir tərəfdən, animasiya spesifik bir sənət növüdür, mədəniyyətin bir hissəsidir və inkişaf etməkdə olan bir potensial daşıyır. Digər tərəfədən uşağın psixoloji sağlamlığına və inkişafına mənfi təsir göstərə bilir (Грозина, 2021).

Televiziya insan səylərinin hər bir fəaliyyətinə təsir göstərir. Çünki uzun müddət konsentrasiyaya az vaxt verir. Kütləvi informasiya vasitələrinin pəncərəsindən uşaqların müşahidəsi adətən onların dünya görüşünü, münasibətini, inanclarını və davranışlarını dəyişir. Televiziyanın ən mühüm funksiyası ondan ibarətdir ki, insan televiziyada insanlarla demək olar ki, real əlaqəni müəyyən edib əldə edə bilirlər.

Hal-hazırda bir çox animasiya uşağın şüuraltında dəyərlər haqqında qismən səhv fikirləri yerləşdirən fiziki gözəlliyə yönəlib (Газиева, 2020).

Müasir uşaqlar müxtəlif cizgi filmlərinə üstünlük verirlər. Böyük bir qismi uşaqlar ələsalınma, zorakılıq və hətta qətl səhnələri olan cizgi filmlərinə baxırlar. Bu cizgi filmlər uşağın mənəviyyatını parçalayır, nəyin mümkün olub, nəyin mümkün olmadığını, nəyin yaxşı, nəyin pis olduğunu unutmağa başlayırlar (Амеликова, 2019).

Müasir cizgi filmlərin səciyyəvi xüsusiyyətləri, məzmunu haqqında daha dolğun fikirlərin ortaya çıxması üçün müqayisə tələb edir. Tədqiqatın bu hissəsində müqayisə 90-cı illərin cizgi filmləri ilə müasir cizgi filmləri arasında aparılmışdır. Bu da müasir cizgi filmlərin əslində keçmişdən günümüzə qədər məzmunların, sujet xəttinin necə dəyişdiyini sübut edərək, daha aydın və anlaşıqlı edəcəkdir.

Hər nəsil hiss edir ki, onların yetkinlik dövrü ən yaxşı vaxtdır və buna onların böyüdükləri şoular da daxildir. Cizgi filmlərinin hansı dövrü daha yaxşı idi, 1990-cı illər və ya daha yeni müasir dövr çoxlu müzakirələrə səbəb oldu. Fərqli nəsillərin görə bilmədiyi şey budur ki, hər iki zaman dövrünün öz məziyyətləri vardır.

**Cədvəl 2. Köhnə (90-cı illər) və müasir cizgi filmlərin müqayisəsi**

| Köhnə cizgi filmlər (90-cı illər) | Müasir cizgi filmlər |
|---|---|
| **1. Cazibədar Animasiya ilə unikal personajlar**<br>90-cı illərdə yaradıcılar istədikləri personajları yaratmaqda sərbəst idilər. Onlar Hey Arnold!-da olduğu kimi uşaqların standart fokusuna sadiq qala bilər və ya qorxu janrını yüngülcə həll edərək, bu filmindəkilər kimi dəhşətli canavarlar yarada bilərdilər.<br>Daha çox simvolik təsir göstərən personajın animasiyalarının cazibəsi də var idi. Bir personaj nəyisə görəndə şoka düşsəydi, onların gözləri sözün əsl mənasında kəllə sümüyünün içindən çıxacaq və ya reallıqda həyata keçirilə bilməyən inanılmaz hərəkətlər edə biləcəkdilər. | **1. Daha yaxşı animasiya daha çox cəlbedici təcrübə yaradır**<br>Animasiyanın arxasındakı texnologiyanın 90-cı illərdən bu günə qədər təkmilləşəcəyini gözləmək olar, lakin bugünkü animatorların zəhmətini də nəzərdən qaçırmaq olmaz. Həm animasiya texnologiyası, həm də istedadın birləşməsi ilə müasir cizgi filmləri daha çox diqqəti cəlb edir. |
| **2. Remeykləri az olan və ya heç olmayan daha çox orijinal ideyalar var idi**<br>80-ci illərin parlaq cizgi filmlərindən sonra 90-lar rəqabət aparmaq üçün orijinal ideyalar yaratmalı oldular. Hər hansı bir serialın | **2. Son cizgi filmi əvvəlki onilliklərdə unudulmuş qrupları təmsil edir**<br>Düzdür, 2000-ci illərin əvvəllərində rəngli insanlar üçün bir az təmsil var idi, lakin ən son onillikdə animasiyada Korra əfsanəsi |

| | |
|---|---|
| yenidən qurulmasından bəhs edilsə belə, bunu etmək üçüm 90lar çox tez idi. Lakin bunlara baxmayaraq, 90-cı illərdə ən yaradıcı hekayələri izah edən ən orijinal cizgi filmləri var idi. | kimi cizgi filmləri görüldü. Bu şoular, xarakterlərinə məcbur edilən hər hansı bir stereotip olmadan rəngli bir insanı əks etdirən bir neçə şoudan bəziləridir.<br>Rəngli insanları təmsil etmək üçün hərəkata başlamaqla yanaşı, LGBT+ icmasına uyğun gələn personajları yaradan bir sıra cizgi filmləri də var. The Loud House filmində bacılardan biri kanonik biseksualdır. |
| **3. Epizodik seriallarda daha az öhdəlik var**<br>İndiki vaxtda cizgi filmi sənayesi daha çox epizodik seriallar axtarır, hansı ki, üst-üstə düşən süjeti yoxdur. Uzunmüddətli bir hekayəni izləmək həyəcanlı olsa da, onu izləmək də çətin ola bilər. Bir seriya bu qədər irəlidə olduqda, sadəcə yetişmək üçün bir iş kimi görünə bilər.<br>90-cı illərdə bu problem çox deyildi, çünki bu dövrdəki serialların əksəriyyəti epizodik idi. Uzun, əhatəli hekayəyə az vaxtı olan cizgi filmlərinin pərəstişkarları üçün 90-cı illərin cizgi filmləri əyləncə üçün daha uyğun olardı. | **3.Daha ağıllı yazı və hekayələr daha maraqlı seriallar yaradır**<br>Həddindən artıq süjetə getmədən epizodik seriallara baxmaq rahatlıq gətirsə də, tam və yaxşı düşünülmüş hekayəsi olan serialdan daha çox şey əldə etmək olar. 90-cı illərin sadəliyinin öz cazibəsi var, lakin bu gün yaradıcıların həll etdiyi mövzular və ideyalar tamaşaçılarda daha çox rezonans doğurur.<br>Cizgi filmlərinin arxasında duran yazıçılar öz cizgi filmlərinin süjetini düşünmək üçün çox çalışırlar. Möhkəm süjet daha güclü personajlar yaradır və tamaşaçıların daha çox cəlb olunmasını təmin edir. Bəzən bir süjet nöqtəsinin çox mənası olduğuna görə serial tərif qazanır, digər vaxtlar isə müqəddimə cəzbedici olduğuna görə. |
| **4. Senzuranın təzyiqlərindən azad**<br>90-cı illərin cizgi filmlərinin əlindən qaça bilməyəcəyi demək olar ki, heç nə yoxdur. Təhrif edilmiş zarafatlardan yalnız böyüklərin başa düşə biləcəyi ssenarilərə qədər, bu onillikdəki uşaqlar bir çox cəhətdən həssaslığa məruz qaldılar. Rugrats, 90-cı illərin uşaqlarının başını aşmış çoxlu seksual zarafatlara sahib idi.<br>İzləyicilər həmçinin Hey! serialında seksual olmayan bəzi ağır yetkin mövzularla tanış oldular. | **4. Daha geniş yaş seçimləri ilə hətta yeniyetmələr də bu cizgi filmlərindən həzz ala bilərlər**<br>Bu gün cizgi filmləri yetkinlik baxımından daha müxtəlifdir, bəziləri Paw Patrol kimi kiçik uşaqlar üçün uyğundur, digərləri isə yeniyetmələr və Korra kimi bəzi böyüklər üçün xoşdur. |
| **5. Seriala daha çox epizod detallara daha çox diqqət deməkdir**<br>Hələ 90-cı illərdə hər mövsüm üçün standart epizod sayı təxminən 25 epizod idi, bu da yaradıcıların öz hekayələri və personajları ilə işləmək üçün daha çox vaxtının olması demək idi. İndiki vaxtda bir şounun hətta 12 seriyası, hətta birdən çox sezonu vardır. | **Bu cizgi filmlərinin xarakterləri daha mənalıdır**<br>Daha mürəkkəb hekayələri, eləcə də daha yaxşı müxtəlifliyi və inklüzivliyi ilə günümüzün cizgi filmi personajları onları bəyənən tamaşaçılar üçün məna kəsb edir. Məsələn, Legend Of Korra-dan Korranı götürək. Fəaliyyət-macəra seriyası təkcə onun döyüşçü kimi inkişafına deyil, həm də ondan sonrakı emosional böyüməyə yönəlib. |

**Mənbə:** ACLYN APPELGATE (DEC 14, 2021) "Nickelodeon: 5 Ways '90s Cartoons Were The Best (& 5 Modern Cartoons Are)" https://www.cbr.com/nickeloden-best-modern-and-90s-cartoons/ [15].

Çağdaş cizgi filmlərində vəziyyətlər real həyata daha yaxındır. Bu böyüklərin real həyatda yaşadığı eyni problemləri, yəni hakimiyyət uğrunda mübarizə, ekologiya, cinayət, pul çatışmazlığı problemi və s. göstərir ki, bu da uşağın zehninə mənfi təsir göstərir (Клюкина, 2019).

Müasir cizgi filmlərinin uşağın şəxsiyyətinə təsiri gündəlik xarakter daşıyır və daha çox tərbiyə vasitəsi kimi qəbul edilir (Бурова, 2018).

Cinsi məzmunun mövcudluğu cizgi filmdə nümayiş etdirilə bilən ən arzuolunmaz komponentlərdən biridir. Son zamanlarda ‘hərəkət və yumor’ adı ilə cizgi filmi məzmununa cəlbedici seksual məzmun daxil olur. Həmçinin cazibədarlıq və təcavüzdə cinsi komediya müasir cizgi film yumorunun tərkib hissəsidir. Menecerlər məhsullarrını unikal etmək və ya hərəkət nümayiş etdirmək üçün insan anatomiyasına diqqət yetirməyi və ya komediya keyfiyyətini artırırlar. Bu seksual məzmun erkən körpələrin zehnini əks anatomiyaya cəlb edir.

Son zamanlarda televiziya ekranında böyüklər üçün cizgi filmləri adlanan filmlərin olması getdikcə daha çox qeyd olunur və uşaqlara bu cizgi filmlərinə baxmaq tövsiyə olunmur. Lakin cizgi filmin mahiyyəti reallıq haqqında məlumatları xüsusilə uşaqlar üçün rəngarəng, ecazkar, fantastik formada təqdim etməkdir. Bunun nəticəsidir ki, böyüklər üçün nəzərdə tutulan cizgi filmlərinə uşaqlar və yeniyetmələr daha çox baxırlar. Belə media məhsulları arasında Simsonlar, Qriffinı, Futurama , Yujnıy Park kimi cizgi serialları var (Семанюк, Ершова, Оконечникова и Муртазина, 2017). Ancaq müasir cizgi filmləri arasında elələri də var ki, onları çəkinmədən uşaqlar üçün cizgi film ensiklopediyası adlandırmaq. Belə cizgi filmləri informativ bir çox texniki cihazların və əşyaların daxili məzmunu ilə tanış edir (məsələn Fiksiki  kimi) olur (Козлова и Деркунская, 2018).

Müasir animasiya dövrünün cizgi filmi üslubları**.** Bugünkü animasiyalar daha çox 3D realizmə diqqət yetirir, köhnə cizgi filmləri isə unikal personajlar və süjetlərdən istifadə edərək yaradıcı olmağa diqqət yetirir. Ən yaxşı cizgi film üslubları zamanla inkişaf etsə də, hər iki dövrün bütün bu müddətdən sonra belə

onlara universal cazibədarlıq verən öz cazibəsi var idi. Animasiyanın tarix boyu necə dəyişdiyini və bu gün də dəyişməyə davam etdiyini görmək çətin deyil.

3D animasiya. Bu animasiya tərzi 3D modelləşdirmə, göstərmə və animasiyadır. Modellərin kompüter tərəfindən yaradılan təsvirləri əsas kadrların qurulması, hərəkətin çəkilməsi və üz skanı kimi müxtəlif üsullarla çəkilişdən əvvəl və ya çəkiliş zamanı yaradıla bilər. Bu üslub tez-tez daha real vizual effektlər yaratmaq üçün istifadə olunur (Rostyslav, 2021).

3D animasiya, kompüter tərəfindən yaradılmış görüntü kimi də tanınır, kompüterlərdə yaradılmış üçölçülü modellərdən istifadə edən cizgi filmidir. Müəyyən proqram 3D animasiya yarada bilər və ya Adobe After Effects və Final Cut Pro kimi rəqəmsal video redaktə sistemlərindən istifadə etməklə nisbətən asanlıqla əldə edilə bilər.

Müqayisə üçün ilk öncə 1994-cü The Lion King haqqında danışaq. Bu cizgi filmində personajlar az qala insan kimi görünürlər ki, bu da müasir animatorların istifadə etdiyi texnikadır. Bu filmin də çox parlaq rəngləri var. Bir səhnədə çox solğun günəşli narıncı səmanı və göz görə bildiyi qədər mavi-yaşıl otlu bir sahəni görə bilərsiniz.

Leyon King (The Lion King) filminin 2019-cu il remeyki daha canlı rənglərə malikdir. Yenə də o, orijinal filmdəki bəzi keyfiyyətləri, o cümlədən hekayə xəttinin müəyyən aspektlərini artırmaq üçün siluetlərdən istifadəni saxlayır. The Lion King 2019 ilə onun sələfi arasında böyük fərq ondan ibarətdir ki, o, xəz toxuması, saç hərəkəti və əzələ hərəkəti kimi animasiya üslubunun hər bir hissəsində daha çox təfərrüata malikdir. "The Lion King 2019" müasir tamaşaçıları cəlb etmək və onlara keçmişin cizgi filmi üslublarına nostalji hisslər bəxş etmək üçün hazırlanmışdır. Bununla belə, bu filmdə hələ də hər iki dövrün elementləri var ki, bu da onu özünəməxsus edir (Rostyslav, 2021).

Müasir cizgi filmlərinin bütün çatışmazlıqlarına baxmayaraq, öyrətməyi bacaran təkbaşına daha məsuliyyətli qərarlar qəbul edə biləcəyini bildirən (Ladybug və SuperCat),  çox çalışmaq və yüksək nəticələr əldə etmək (Ulduz

Şahzadə və şər qüvvələr), dostluğa və dostlara dəyər vermək, həmişə onlarla olmaq və mümkünsə kömək əlini uzatmaq (Rapunzel: Hekayə davam edir, Steven Universe, Phineas və Ferb, Winx Club), ailəni qiymətləndirmək və sevmək, həmişə problemlərinizlə üzləşmək, onları aradan qaldırmağı öyrənmək kimi keyfiyyətləri Walt Disney Pictures studiyasının animasiyası da dəstəklənir (Богомолова, 2020).

Müasir animasiya bir sıra xüsusiyyətlərə malikdir: animizm, cansız cisimlərin canlandırılması, heyvan və bitkilərə insan qabiliyyətlərini bəxş etməsi; real və fantastik, xeyir və şər qüvvələrinin olması; obrazlılıq və parlaqlıq; təsvirlərin dəyişməsinin dinamikliyi və qısalığı (Волошина, 2019).

## 2.3. Cizgi filimlərdəki personajların xarakteristikası

Əvvələr uşaqların həyatına nümunəvi obrazlar nağıllarla girirdisə, indi cizgi filmləri ilə girirlər. Cizgi filmlərinə nəzər saldıqda bu gün keçmişin nağıl funksiyalarını öz tamaşaçılarına təqdim etdiyi, nağıllardakı kimi detallara varmadığı, qeyri-adi şeylərlə dolu olduğu görünür. Buna görə də bir növ cizgi filmlərinin günümüzün nağılları olduğunu söyləmək olar (Aydın, 2018).

Ekran personajının agressiv hərəkətləri nəticəsində uşaqlar üçün xeyirlə şər arasındaki sərhəd silinir, bu cür simvollardan istifadə edərək bütün sonrakı istehsal uşaqda sabit bir fikri gücləndirir, sonradan dəyişmək çox çətin ola bilir (Ермилина и Озарина, 2018).

Personajlar cizgi filminin və ya animasiya istehsalının uğurunun əsas amilidir. İnsanlar personajları sevir, həyatlarının bütün sahələrində onlarla ünsiyyət qururlar, fantastik personajlar bizi filmlərdə, televiziyada öz hekayələrinə cəlb edir. Eyni zamanda insanlar kimi, cizgi personajları da yaxşı danışıq tərəfdaşları olmalıdırlar (Liu, Chen və Chang, 2019).

Uşaqlar ətrafdakı insanların müxtəlif davranışlarını müşahidə edirlər. Müşahidə olunan şəxslər məsələn, valideynlər, televiziyasındaki personajlar, məktəbdəki müəllimlər və dostlar kimi modellərdir. Bu modellər təqlid və

müşahidə etmək üçün davranış nümunələri təqdim edir, uşaqlar bu modellərin bəzilərinə diqqət yetirir və onların davranışlarını kodlaşdırırlar.

Cizgi filmlərindəki personajlar həm müsbət, həm də mənfi keyfiyyətlər nümayiş etdirə bilirlər ki, bu da onları real insana yaxınlaşdırır və inandırıcı edir (Декман, 2021). Personajlar uşaqlara ətrafdaki dünya ilə yaxşı və pis tərzi, davranışı öyrədir və uşaq özünü cizgi filmin baş qəhramanı kimi təsəvvür edir, çətinlikləri, yaşantıları, qorxuları ilə mübarizə aparmağa başlayır (Лаврикова, 2021).

Bir araşdırma göstərir ki, orta hesabla bir uşaq 18 yaşına qədər televiziyada 2 milyon zorakı davranışa məruz qalır. Bunların çoxu zərərsiz görünən qeyri-real

cizgi filmlərindən ola bilər. Bir neçə məşhur cizgi filmi zorakılığı komik və ya məqbul tərzdə təsvir edir. Şiddətli cizgi filmlərinin uşaqlara necə təsir edə biləcəyini anlayaq (Ramesh, 2021):

- Cizgi filmləri zorakılığı normallaşdırır və onu adi və məqbul edir;
- Təkrarlanan, cəzasız və real zorakılığın uşaqlar tərəfindən təqlid edilməsi ehtimalı yüksəkdir;
- Şiddətli cizgi filmləri itaətsizlik, əsəbi və aqressiv meyllərə səbəb ola bilər;
- Cizgi filmləri uşaqları ətraflarında baş verən kədər, ağrı və zorakılığa qarşı həssaslaşdıra bilər;
- Uşaqlar cizgi filmi personajlarına real həyat nümunəsi kimi baxmağa başlaya bilər və göstərilən aqressiya öz daxilində qəbul edilə bilər.

Uşaqların 78%-i qorxu cizgi filmlərinə baxdıqdan sonra qaranlıq və ya kimsəsiz yerlərə getməkdən qorxur. Uşaqların 71%-i düşmənləri öldürmənin və ya məhv etməyin düzgün addım olduğunu düşünür. Şiddətli cizgi filmləri antisosyal davranışlara səbəb ola bilər. Oğlanlar qızlardan daha çox şiddətli cizgi filmlərini təqlid edirlər.

Daha çox iki yaşında kiçik uşaqlar televizorun necə işlədiyini göstərənə qədər onu cəlb etmir. Televizoru tamamilə qadağan etmək mümkün olmayacaqdır, lakin cizgi filminin seçiminə düzgün yanaşmaq mümkündür. Bu da inkişafa düzgün təsir göstərəcəkdir. Çünki körpələr özlərinə kömək edə bilmirlər, böyüklərin köməyinə ehtiyac duyurlar (Газиева, 2020).

Uşaqların media istehlakı və qavrayışının sağlam olmasını təmin etmək valideynlərin və təhsil müəssisələrinin roludur. Valideynlər azyaşlı uşaqların baxdığı cizgi filmlərinin və digər KİV-lərin məzmununa nəzarət etməlidirlər. Onlar uşaqlara məlumatlı rəy formalaşdırmaq üçün gördükləri məzmunu tənqidi qiymətləndirməyə və təhlil etməyə kömək etməlidirlər. Valideyn uşağa “Səncə, sağlamdırmı?” kimi suallar verə bilər. Onlar həmçinin uşaqlara reallıq və fantaziya arasında fərq qoymağa kömək edə bilər. Buna görə də uşaq cizgi

filmindəki zorakılıq və onun nəticələrini real həyatdan ayıra biləcəkdir (Ramesh, 2021).

Müvafiq maarifləndirici cizgi filmləri də mövcuddur. Şoular evdə ümumi ərazidə izlənilməli və cihazlar valideynlər üçün əlçatan olmalıdır. Cizgi filmləri yerinə audio CD və məlumatlandırıcı maarifləndirici kanallardan istifadə etmək də məqsədə uyğundur.

Bulmacalar, açıq havada oynamaq və ya yeni bir bacarıq öyrənmək kimi digər fəaliyyətlər təşviq edilə bilər. Uşaqlar müəyyən edilmiş qaydalara əməl etdiklərinə və ya sağlam istehlak və qavrayış nümunələri göstərdiklərinə görə təriflənməli və gücləndirilməlidir.

Uşaqlar gördükləri hər şeydə, o cümlədən cizgi filmlərinə baxmaqda balanslı həyat tərzi keçirməlidirlər. Valideynlər uşaqların televizora baxmağa və ya kompüterdən istifadə etməyə sərf etdikləri vaxta nəzarət etməli və gündə maksimum bir saata qədər məhdudlaşdırmalıdırlar. Valideynlər izah etməlidirlər ki, müəyyən bir səhnədəki cizgi filmi personajı zərər görməyib, amma real həyatda ciddi şəkildə yaralanacaq və ya öləcək. Valideynlər həmçinin uşaqlarına deməlidirlər ki, zorakı davranış münaqişəni həll etmək üçün ən yaxşı hərəkət yolu deyil. Bəzi cizgi filmlərində yaş məhdudiyyəti olmalıdır. Yayımçıların bu proqramın bir hissəsi kimi televiziyada nələrin göstərilməli və nəyin göstərilməməli olduğunu qiymətləndirən və onların yayımlanması üçün uyğun vaxtın nə vaxt olduğuna qərar verən peşəkar komandalar (uşaq proqramı üzrə ekspertlər, redaktor və psixoloq) olmalıdır. Uşaqlara məzmununu başa düşə bilmədikləri bəzi cizgi filmlərinə baxmağa icazə verilməməlidir. Valideynlər uşaqlarına müsbət təsir göstərə biləcək cizgi filmləri təqdim etməlidirlər. Yaxşı olardı ki, valideynlər də uşaqlarla cizgi filmlərinin personajlarına baxıb müzakirə etsinlər.

Cizgi filminin uşaqlara müsbət və mənfi təsirləri olduğu üçün valideynlər onlara baxarkən onlara nəzarət etməlidirlər. Əgər uşağın davranışında, gündəlik həyatında hər hansı dəyişiklik varsa, bu yoxlanılmalı və lazım olan hər hansı

dəyişikliklər aparılmalıdır. Uşaqları evdə olarkən onlara uyğun vaxt ayırmaq hər bir valideynin borcudur. Birlikdə oynamağa, birlikdə oxumağa və birlikdə yemək hazırlamağa vaxt ayırmaq lazımdır. Uşaqlar daha çox açıq oyunlar oynamağa, içəridə qalmamağa, cizgi filminə baxmağa və video oyunlar oynamağa təşviq edilməlidir. Buradan da belə nəticəyə gəlmək olar ki, uşaqların vaxtının və diqqətinin böyük hissəsi cizgi filmlərinə baxmağa yönəldiyi üçün cizgi filmi proqramlarından çox təsirlənirdilər. Ancaq cizgi filmlərinə baxma müddəti uşaqdan uşağa dəyişir.

# III FƏSİL. MƏKTƏBƏQƏDƏR VƏ KİÇİK MƏKTƏBLİ YAŞ DÖVRÜNDƏ OLAN UŞAQLARIN CİZGİ FİLM SÜJETLƏRİNİ QAVRAMASININ EKSPERİMENTAL TƏDQİQİ

## 3.1.Tədqiqatın təşkili və keçirilməsi

### 3.1.1. Tədqiqat iştirakçıları

Tədqiqat Bakı şəhərində yerləşən özəl baxçada və 244 nömrəli orta məktəbində təhsil alan şagirdlər arasında aparılmışdır. Tədqiqatda 92 valideyn və 102 uşaq iştirak etmişdir. 102 uşaqdan 48 qız, 54 oğlandır. Tədqiqat prosesində iştirakçıların seçimi zamanı aşağıdaki meyarlar nəzərə alınmışdır:

1. Yaş həddi 3 yaşdan 12 yaşa qədər olmalıdır;
2. Uşaqların cizgi filmlərini izləməsi lazımdır;
3. Sualları adekvat şəkildə cavablandırmağa hazır olmalıdır.

Tədqiqat zamanı hər bir iştirakçıya tədqiqatın məqsədləri haqqında ətraflı məlumat verilmiş və etik qaydalara uyğun olaraq tədqiqatın istənilən mərhələsində iştirakdan imtina etmək imkanlarının olduğu qeyd edilmişdir. Əlavə olaraq, tədqiqatın tamamilə məxfi olması və əldə edilən məlumatların yalnız tədqiqatın nəticələri üçün istifadə ediləcəyi istiqamətində məlumat verilmişdir.

### 3.1.2. Tədqiqatda istifadə olunmuş metodlar

Tədqiqat zamanı araşdırma metodu olaraq sorğu metodunun anket formasından (anket sorğu metodu), müşahidədən, kontent-analizdən müsahibə metodundan istifadə edilmişdir. Anket sorğudan sərbəst tipli suallar formasından istifadə olunmuşdur. Anket sorğunun və müsahibənin hazırlanması zamanı çoxsaylı yerli və xarici ədəbiyyatlar təhlili edilmiş, geniş sual toplusu müəyyənləşdirilmişdir. Sonrakı mərhələdə mövzu ilə bağlı mütəxəssisin rəyi alınmış və ümumilikdə 34 sualdan ibarət anket sorğu sualları tərtib edilmişdir. Tədqiqata başlamadan əvvəl sualların aydınlığını və yarana biləcək problemlərin qarşısını almaq məqsədi ilə anket sorğu və müsahibə ilk olaraq, sınaq məqsədi ilə

(pilotaj tədqiqat) 15 uşaq 8 valideyn üzərində tətbiq olunmuşdur. Sonrakı mərhələdə problemli suallar yenidən işlənilmiş və anket istifadəyə hazır vəziyyətə gətirilmişdir. Tədqiqat zamanı istifadə edilən sorğu üç hissədən ibarətdir:

I hissə. Sosial-demoqrafik məlumat. Bu hissədə tədqiqat iştirakçılarının genderini, yaşını müəyyənləşdirən suallar qeyd olunmuşdur.

II hissə. Cizgi filmlərinin təsiri. Cizgi filmin, uşaqlara təsirini öyrənilməsinə istiqamətlənmiş anket sorğu 5 sualdan ibarətdir. Bu zaman iştirakçılara (valideynlərə) sorğu metodunun anket formasında yer alan bölmələri diqqətlə oxumalı və dinləməli, qeyd olunan açıq suallara cavab verməkləri xahiş olunmuşdur.

Bu hissədə anket sorğu suallarını hazırlayan zaman xarici müəlliflərin cizgi filmlərin təsiri ilə bağlı araşdırmalarına diqqət yetirilmişdir. Anket sorğu cizgi filmlərin təsirinin əsas seciyyəvi xüsusiyyətlərini əks etdirmək məqsədi ilə dörd meyar əsasında tərtib olunmuşdur. Bu zaman valideynlər tərəfində cizgi filmlərin uşaqlara təsiri əsasında aşağıdaki meyarlar nəzərə alınmış və uyğun sualların nömrələri qarşısında qeyd olunmuşdur:

1. Cizgi filmlərinin psixoloji təsiri (4,5,6).
2. Şəxsin valideyinin cizgi filmləri dəyərləndirməsi (7)
3. Şəxsin cizgi filmlərinə yanaşmsı (8)

Həmçinin anket sorğu zamanı uşaqların ən çox baxdığı dörd cizgi filmi müəyyənləşdirilmiş, onlar hər biri üzərindən 5 sual tərtib olunmuşdur.

III hissə. Cizgi filmlərinin qavranılması. Ən çox sevilən dörd cizgi filmi əsasında uşaqların cizgi filmləri qavranılması və təsiri formalarını müəyyənləşdirmək üçün 20 sualdan ibarət anket sorğu tərtib edilmişdir. Sualların hazırlanmasında cizgi filmlərin təsiri və qavranması ilə bağlı nəzəri məlumatlar və bu istiqamətdə aparılan araşdırmalar nəzərə alınmışdır. Həmçinin aqressivlik,qorxu,təşviş və təqlidin yaş və gender arasında əlaqəyə baxılmış, Spss-də korreliyasiya analizi aparılmışdır. Onun üçündə əlavə olaraq seçilmiş cizgi filmlərindən süjetindən asılı olaraq 6 sual tərtib edilmiş.

1. Şəxsin gələcəkdəki arzu və istəkləri (1,2);
2. Şəxsin maraq dairəsini müəyənləşdirilməsi (3,4,5);
3. Cizgi filmlərinin psixoloji qavranılması (20).

3.1.3. Tədqiqatın strukturu

Tədqiqat üç mərhələdən ibarətdir. İlkin mərhələdə tədqiqatın ümumi dizaynı hazırlanmış, bu zaman tədqiqatın fərziyyəsi, məqsədi, iştirakçıların sayı və istifadə olunacaq metodikalar müəyyən edilmişdir. Metodikaların seçimi zamanı cizgi filmlərinin uşaqlarara təsiri və onun qavranılması məqsədi ilə anket sorğudan və müsahibədən istifadə olunmuş, ailədəki problemlər və uşağın psixoloji vəziyyəti nəzərə alınmış, nəticələrin etibarlığı və cizgi filmlərinin təsirini əhatə etməsi baxımından anket sorğudan istifadə olunması daha məqbul hesab edilmişdir. Bu mərhələdə anket sorğunun tətbiqi ilkin olaraq pilotaj şəklində həyata keçirilmiş, üzərində bir sıra redaktə işləri aparılmış və istifadə üçün hazır vəziyyətə salınmışdır.

İkinci mərhələdə tədqiqat iştirakçılarına tədqiqatın məqsədləri və anonimliyi haqqında məlumat verilmiş, əldə edilən məlumatların yalnız tədqiqatın məqsədləri istiqamətində istifadə olunacağı və istədikləri zaman iştirakdan imtina hüquqları olduqları bildirilmişdir. Tədqiqatda iştirak etməyə könüllü olan şəxslərə "sosial-demoqrafik məlumatlar" anket sorğusu, "cizgi filmlərin təsiri" anket sorğusu, "cizgi filmlərin təsiri və qavranması" anket sorğusu daxil olmaqla ümumilikdə 29 sual verilmişdir. Anket sorğunun hər bir hissəsində yazılı və şifahi formada təlimatlar verilmiş və anketi doldurma qaydası qeyd olunmuşdur. Müsahibənin isə standartlaşdırılmamış növündən istifadə olunmuşdir.

Üçüncü mərhələdə əldə olunan nəticələrin statistik təhlili aparılmışdır. Alınan məlumatlar Spss 25.0 proqramına daxil edilmiş, nəticələr cədvəllərlə əks etdirilmişdir. Sonda əldə olunan nəticələr dissertasiyaya əlavə edilmişdir.

3.1.4. Tədqiqatın statistik təhlili

Kontent analiz

Valideynlərlə anket-sorğu zamanı, cizgi filmlərinin uşaqlara mənfi və müsbət təsirləri müəyyənləşdirilmişdir. Qeyd etmək lazımdır ki, valideynlər cizgi filmlərinin mənfi tərəfləri ilə yanaşı, müsbət təsirlərini də göstərmişlər. Həmin təsirlər aşağıdakı kimi xarakterizə olunmuşdur: 60 uşaqda mənfi, 11 uşaqda müsbət, 31 uşaqda isə həm mənfi, həm də müsbət təsirləri müşahidə edilmişdir. Mənfi təsirlərə, uşaqların müəyyən çizgi filmlərinə baxdıqdan sonra davranışlarında və emosional sahədə bir sıra neqativ dəyişiklər olur məsələn aqressivlik yəni birini vurduqdan sonra ona heç bir zərər verməyəcəyini düşünməsi, dostları ilə yola getməmək, sosial həyatdan uzaqlaşmaları, bəzən uça bildiklərini düşünmələri, ordaki mənfi personajların təqlid etmələri və qəribə səs çıxartmaları daxildir. Müsbət təsirlərə isə, bəzi cizgi filmlərini öyrədici, düşündürüçü olması, qrup yaratma bacarığı, həmçinin ordaki müsbət personajları təqlid etmək daxildir. Bəzi valideynlərin fikrincə isə cizgi filmlərinin həm mənfi, həm müsbət təsirlərinə, öyrədici olması lakin öyrədiciliyin çox az personajın hərəkətlərində görülməsi daxildir. Bəzi valideynlər müəyyən çizgi filmlərinin müsbət təsir etdiyini ancaq personajlarında və ya süjet xəttində bir sıra problemlər yarandığını yəni süjetin məntiqə uymadığını bildirirlər, bəzən isə yaxşı və pis terminləri arasında xətlər silinir və uşaqlar nəyin yaxşı nəyin pis olduğunu müəyyən edə bilmirlər.

Davranışa və emosional dəyişikliklərə nəzər salsaq, 55 uşaqda müəyyən cizgi filmlərinə baxdıqdan sonra aqressiv davranış müəyyən olunmuşdur. 9 nəfərdə xoşbəxtlik hissi yaranmışdır. 38 nəfərdə isə cizgi filmlərindən asılı olaraq həm aqressivlik həm də rahat və sakitcə baxılması müşahidə olunmuşdur. Yəni bəzi uşaqlar eyni tipli çizgi filmlərinə baxırlar, lakin bəzi uşaqlarda bu tendensiya hər səfərində dəyişir.

Daha sonra valideynlərlə anket-sorğu zamanı cizgi filmlərinin seçərkən hansı kriteriyalara əsaslandıqları müəyyən edilmişdir. Onlar daha çox öyrədici,

əsasən şiddət və qorxu aşılamayan, dost qazanmağı öyrədən, dünya görüşünü inkişaf etdirən cizgi filmlərinə üstünlük verirlər. Lakin uşaqların istəkləri ilə valideynlərin istəkləri ilə çox zaman üst-üstə düşmür. Uşaqlar daha əyləncəli, macəra dolu, həyəcanlı cizgi filmlərinə üstünlük verirlər.

Daha sonra uşaqlardan müsahibə aparılıb, hansı cizgi filmlərinə baxdıqları müəyyən edilib içlərindən ən çox baxılanlan 4 cizgi film seçilib. Hər birinin ilk 20 dəqiqəsi uşaqlara göstərili. Onlar əsasında uşaqların qavrama prosesini öyrənmək üçün hər cizgi filmindən 5 sual soruşuub. Suallar sujet əsasında hazırlanmışdır.

1) Maşa və ayı. 31 nəfər 3-7 yaşlı qız, 34 nəfər 3-7 yaş arası oğlan uşaqları bu cizgi filminə baxmağı üstünlük verirlər. Maşa və Ayını gülməli, əyləncəli olduğu üçün sevirlər. Bu cizgi filminə baxdıqdan sonra nə hiss etdikləri soruşuldu və necə davrandığı müşahidə olundu: 102 uşaqdan 79 (80,58%) uşaqda Maşanı təqlid etmək elementləri yəni mənfi tərəfləri görüldü. Maşanın davranışları, səsləri buraya daxildir. 11 nəfərdə (11,22%) Maşanın heyvanları incitdiyi kimi dostlarını incidirlər, 64 nəfərdə (65%) aqressiv davranışlarda görüldü. 12 nəfər (12,24%) isə baxdıqdan sonra xoşbəxt hiss etdilər.

Suallar əsasında cizgi filmin sujet xətti:

1. Sizcə heyvanlar nə üçün Maşadan qorxurlar? Heyvanları incitdiyi, qorxudduğu üçün Maşadan qorxurlar.

2. Ayı Maşadan nə üçün canını qurtarmaq istəyir? Ayı çox təmizkar, səliqəli və Maşanın isə çox dağınıq olduğu üçün o canını qurtarmaq istəyirdi.

3. Ayı nə üçün peşman olur? Meşənin çox qorxulu və qaranlıq olduğu üçün Maşaya görə narahat olur. Onu orda tək qoyduğu üçün peşman olur.

4. Niyə Ayı öz əşyalarını və ərzağını gizlədir? Ayı qış yuxusuna hazırlandığı, əşyalarına və ərzaqlara sıcananların daraşmasından qorxduğu üçün gizlədirdi.

5. Niyə ayı Maşaya təslim olur? Ayı Maşanı çox istədiyi üçün ona təslim olur.

2) Zootopia. 27 nəfər 8-10 yaş arası qız və 30 nəfər 8-10 yaş arası oğlan bu cizgi filminə baxmağı üstünlük verirlər. Zveropoloisə həyəcanlı və macəra dolu olduğu üçün sevilir. Bu cizgi filminə baxdıqdan sonra nə hiss etdikləri soruşuldu və necə davrandığı müşahidə olundu.  Zveropolisə baxan uşaqlarda isə həyəcan təşviş qorxu görüldü. 13 uşaqda (7,41%) təşviş 5 (2,8%) nəfərdə heyvanların bəzilərindən qorxduqların bildirdilər. 36 nəfərdə aaqressiv elementlər görülüb

Suallar əsasında cizgi filmin sujet xətti:

1. Niyə polislərin içində dovşanlar yoxdur? O günə qədər heç bir dovşan balaca və qorxaq bilindikləri üçün polisliyi seçə bilmiyiblər.

2. Nə üçün dovşan polis olmaq istəyirdi? Onun ən böyük arzusu polis olmaq idi. Özünü polis olaraq görürüdü.

3. Baş polis nə üçün dovşanı təqdim etmədi? Polis sıralarında dövşanı ilk dəfə görülmürdü ona fikir verən yox idi. Həmçinin polisə oxşamırdı.

4. Tülkü nə üçün böyük dondurma almaq istəyirdi? Tülkü satmaq üçün böyük dondurma almaq istəyirdi.

5. Nə üçün dovşan tülkünü sorğulamaq istəyir? Özünü polislərin üçündə təstiqləmək və günahkarı tapmaq üçüntülkünü sorğulamaq istəyir.

3) Rapunzel: qarışıq hekayələr.  Bu cizgi filminə daha çox 34 nəfər 8-10 yaş arası qızlar üstünlük verir. Rapunzel: qarışıq hekayələrin süjetinin maraqlı olduğu üçün sevilir. Bu cizgi filminə baxdıqdan sonra nə hiss etdikləri soruşuldu və necə davrandığı müşahidə olundu: 102 uşaqdan 11 təşviş (11,22%), 3 nəfərdə (3,0%) qorxu görüldü. 88 nəfər isə rahat baxıblar, 46 nəfər həyəcanla izləyib.

Suallar əsasında cizgi filmin sujet xətti:

1. Sehirli gül nə üçündü? Sehirli gül xəstəlikləri sağaltmaq üçün istifadə olunur.

2. Nə üçün Rapuzel qüllədə qalırdı? Rapunzelin saçları sehirli olduğu üçün Canugəri cavan saxlayırdı. Ona görə Rapunzelə özünü anası kimi tanıdıb, onu qüllədə saxlayırdı.

3. Rapunzelin ən böyük arzusu nə idi? Rapunzelin əsil valideynləri onun ad günündə, itdiyinə görə göyə işıqlar göndərirdilər. Rapunzel o ışıqları yaxından görmək istəyirdi.

4. Oğlan kimdən qaçırdı? Bədxah insanlardan qaçırdı.

5. Rapunzel anasını nə üçün uzağa göndərir? İşıqları rahat görə bilmək və cölə çıxmaq üçün anasını göndərir.

4) Maşınlar. Bu cizgi filminə 36 nəfər 3-7 yaş arası oğlanlar daha çox üstünlük verir. Maşınlar cizgi filmi həyəcanlı və süjet xəttinə görə sevilir.

Suallar əsasında cizgi filmin sujet xətti: Bu cizgi filminə baxdıqdan sonra nə hiss etdikləri soruşuldu və necə davrandığı müşahidə olundu: 102 uşaqdan 3 nəfərdə (3,0%) aqressiv davranışlar, 76 nəfər (77,2%) həyəcanla, 10 nəfər (10,2%) təşvişlə baxılırdı görüldü. 13 nəfər isə rahat baxıləbdır.

1. Nə üçün təkər dəyişən maşınlar Makvinlə işləmək istəmirlər? Makvin təkər dəyişən maşınlara pis davrandığı, onları incitdiyi üçün Makvinlə işləmək istəmirdi.

2. Nə üçün aqent Makvinə dostları haqqında soruşanda onun üzü düşür? Aqent Makvinə dostları haqqında soruşanda dostu olmadığı üçün üzü düşür.

3. Makvin nə üçün itir? Böyük maşını yorulduğu üçün yatmaq istəyir lakin Makvin onu yatmağa qoymur və qəza baş verir.

4. Makvini nə üçün türməyə salırlar və ona nə cəza verdilər? Makvin yolları dağıtdığı üçün onu türməyə salıb, cəza verirlər.

5. Makvin o şəhərdə nələr öyrəndi? Makvin o şəhərdə dost qazanmağı, ailə olmağı və insanlarla münasibət qurmağı öyrənir.

Ümumi nəticəyə gəlsək, cizgi filmin motiv və ideyalarını düzgün formada qavramaqlarıma baxmayaraq, onlara təsiri neqativ ola bilir, Yəni cizgi filmlərinin düzgün qavranılması onların zərərli təsirlərindən qorumur.

Tədqiqat zamanı əldə olunan nəticələrin statistik təhlilində SPSS 25.0 proqramından istifadə edilmişdir. Tədqiqatda 40 respondent iştirak etmişdir.

Tərtib olunan 9 (doqquz) sual əsasında qorxu, təşviş, tənqid, aqressivlik və qavramanın yaş və cins arasındakı korrelasiya əlaqəsi təhlil edilmişdir.

**Cins 1.** Uşaqlarda cins və qorxu əlaqəsində baxdıqda, üç əlaqə görürük. Oğlanların qızlarla müqayisədə müəyyən səhnədən daha çox qorxduqları, lakin qızlara nisbətən heç qorxmadıqları göstəricisi onalarda daha yüksəkdir. Üçüncü hissədə isə oğlanlara nəzərən qızların qorxu dərəcəsi orta səviyədədir. Yəni oğlanlara nisbətdə qızlar daha çox qorxmuşlardır. Nəticə olaraq, cinslər dəyişdikcə qorxunun səviyyəsi dəyişir.

**Crosstab**

| | | | Zootopiadaki mister Mances səhnəsinə baxdıqdan sonra qorxu görülürmü? | | | Total |
|---|---|---|---|---|---|---|
| | | | Çox qorxdu | Heç qorxmadı | Orta dərəcə qorxdu | |
| gender | oğlan | Count | $8_a$ | $6_a$ | $6_a$ | 20 |
| | | Expected Count | 6.5 | 4.0 | 9.5 | 20.0 |
| | qız | Count | $5_a$ | $2_a$ | $13_a$ | 20 |
| | | Expected Count | 6.5 | 4.0 | 9.5 | 20.0 |
| Total | | Count | 13 | 8 | 19 | 40 |
| | | Expected Count | 13.0 | 8.0 | 19.0 | 40.0 |

**Chi-Square Tests**

| | Value | df | Asymptotic Significance (2-sided) |
|---|---|---|---|
| Pearson Chi-Square | $5.271^a$ | 2 | .072 |
| Likelihood Ratio | 5.432 | 2 | .066 |
| N of Valid Cases | 40 | | |

**Symmetric Measures**

| | | Value | Approximate Significance |
|---|---|---|---|
| Nominal by Nominal | Phi | .363 | .072 |
| | Cramer's V | .363 | .072 |
| | Contingency Coefficient | .341 | .072 |
| N of Valid Cases | | 40 | |

Cins 2. Uşaqlarda cinslər təşviş arasındaki əlaqəyə baxdıqda, oğlanlar və qızlar arsında bir fərq görülmədi. Hər ikisi eyni dərəcədə eyni səhnədə təşviş hiss edirlər. Ümumilikdə nəticələrə baxdıqda isə müəyyən səhnəyə baxdıqdan sonra təşvişin yoxluğu hər iki cinsi üçün təşvişin olmağından üstündür.

**Crosstab**

| | | | Zootopiada oğurluq səhnəsindən sonra təşviş hiss olundumu? | | Total |
|---|---|---|---|---|---|
| | | | Təşfiş yoxdur | Təşviş görünür | |
| gender | oğlan | Count | $12_a$ | $8_a$ | 20 |
| | | Expected Count | 12.0 | 8.0 | 20.0 |

| | | | | | |
|---|---|---|---|---|---|
| | qız | Count | 12a | 8a | 20 |
| | | Expected Count | 12.0 | 8.0 | 20.0 |
| Total | | Count | 24 | 16 | 40 |
| | | Expected Count | 24.0 | 16.0 | 40.0 |

**Chi-Square Tests**

| | Value | df | Asymptotic Significance (2-sided) | Exact Sig. (2-sided) | Exact Sig. (1-sided) |
|---|---|---|---|---|---|
| Pearson Chi-Square | .000[a] | 1 | 1.000 | | |
| Continuity Correction[b] | .000 | 1 | 1.000 | | |
| Likelihood Ratio | .000 | 1 | 1.000 | | |
| Fisher's Exact Test | | | | 1.000 | .626 |
| N of Valid Cases | 40 | | | | |

**Symmetric Measures**

| | | Value | Approximate Significance |
|---|---|---|---|
| Nominal by Nominal | Phi | .000 | 1.000 |
| | Cramer's V | .000 | 1.000 |
| | Contingency Coefficient | .000 | 1.000 |
| N of Valid Cases | | 40 | |

Cins 3. Bu cədvəldə uşaqların cinsi və təqlid arasındaki əlaqələr müəyyən edilib. Həm oğlanlarda hə qızlarda davranışları təqlid eyni səviyədədir. Eyni vaxtda cins və səsləri təqlidə eyni səviyyədə özünü göstərir. Lakin sözlərin təqlidi və cins arasındaki fərqlər görüldü. Oğlanlara nisbətən qızlarda sözləri daha çox təqlid görünür. Qızlara nisbətən isə oğlanlarda təqlid elementləri daha azdır. Cinslə təşviş arasındakı korrelasiya əlaqəsi yüksəkdir

**Crosstab**

| | | | Maşa personajının təqlid edirlərmi? Hansı tip təqlid görülür? | | | |
|---|---|---|---|---|---|---|
| | | | Bəli sözləri təqlid | Bəli. Davranışları təqlid | Bəli. Səslər təqlid | Yox heç biri |
| gender | oğlan | Count | 1a | 7a | 5a | 7a |
| | | Expected Count | 2.0 | 7.0 | 5.0 | 6.0 |
| | qız | Count | 3a | 7a | 5a | 5a |
| | | Expected Count | 2.0 | 7.0 | 5.0 | 6.0 |

| | | | | | |
|---|---|---|---|---|---|
| Total | Count | 4 | 14 | 10 | 12 |
| | Expected Count | 4.0 | 14.0 | 10.0 | 12.0 |

**Symmetric Measures**

| | | Value | Approximate Significance |
|---|---|---|---|
| Nominal by Nominal | Phi | .183 | .721 |
| | Cramer's V | .183 | .721 |
| | Contingency Coefficient | .180 | .721 |
| N of Valid Cases | | 40 | |

Cins 4. Cins və qavrama əlaqəsinə baxdıqda qızlarda düzgün qavrama daha üst səviyyədədir. Oğlanların qavraması qızlara nisbətən daha səhv qavrayırlar. (Bu 4,5,6 və 7 ci suallar üçün də eynidir).

**Crosstab**

| | | | Qavrama Rapunzel № 1: Rapunzelin ən böyük arzusu nə idi | | |
|---|---|---|---|---|---|
| | | | Düz | Səhv | Total |
| gender | oğlan | Count | $11_a$ | $9_a$ | 20 |
| | | Expected Count | 13.0 | 7.0 | 20.0 |
| | qız | Count | $15_a$ | $5_a$ | 20 |
| | | Expected Count | 13.0 | 7.0 | 20.0 |
| Total | | Count | 26 | 14 | 40 |
| | | Expected Count | 26.0 | 14.0 | 40.0 |

**Symmetric Measures**

| | | Value | Approximate Significance |
|---|---|---|---|
| Nominal by Nominal | Phi | -.210 | .185 |
| | Cramer's V | .210 | .185 |
| | Contingency Coefficient | .205 | .185 |
| N of Valid Cases | | 40 | |

Cins 8. Cins və aqressivlik arasındaki əlaqəyə baxdıqda qızlara nisbətən oğlanlar orta dərəcədə aqressivlik göstərirlər. Oğlanlara nisbətən qızlarda az fərqlə müəyyən səhnədə aqressivlik daha çoxdur. Eyni zamanda qızlarda oğlanlara nisbətən aqressivlik daha az görünür. Ümumilikdə isə cinsi fərqlilik ilə

aqresivlik səviyyəsi arasındakı əlaqə zəifdir. Bu nəticə 9-cu sual üçün də eynilik təşkil edir.

| Symmetric Measures | | | |
|---|---|---|---|
| | | Value | Approximate Significance |
| Nominal by Nominal | Phi | .269 | .235 |
| | Cramer's V | .269 | .235 |
| | Contingency Coefficient | .260 | .235 |
| N of Valid Cases | | 40 | |

| Symmetric Measures | | | |
|---|---|---|---|
| | | Value | Approximate Significance |
| Nominal by Nominal | Phi | .239 | .319 |
| | Cramer's V | .239 | .319 |
| | Contingency Coefficient | .232 | .319 |
| N of Valid Cases | | 40 | |

## Yaşla qorxu, təşviş, təqlid, qavrama və aqresivlik arasındakı əlaqə

| Correlations | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | age | Zootopiadaki mister Mances səhnəsinə baxdıqdan sonra qorxu görülürmü? | Zootopiada oğurluq səhnəsindən sonra təşviş hiss olundumu? | Maşa personajının təqlid edirlərmi? Hansı tip təqlid görülür? | Qavrama Rapunzel № 1: Rapunzelin ən böyük arzusu nə idi | Qavrama Rapunzel № 2: Nə üçün Rapuzel qüllədə qalırdı? |
| age | Pearson Correlation | 1 | -.465** | -.687** | -.766** | .681** | .706** |
| | Sig. (2-tailed) | | .003 | <.001 | <.001 | <.001 | <.001 |
| | N | 40 | 40 | 40 | 40 | 40 | 40 |

| Correlations | | | | | |
|---|---|---|---|---|---|
| | | Qavrama Maşınlar № 1: Makvin nə üçün itir? | Qavrama Maşınlar № 2: Makvini nə üçün türməyə salırlar və ona nə cəza verdilər? | Uşaqlarda Maşa və Ayıya baxdıqda Maşanın ayını bezdirirdiyi səhnədəki elmentləri təkralıyırlarmı və bu uşaqlarda aqressivlik yaradırmı və nə dərəcə olur? | Maşınlar cizgi filmində maşınların bir birinə sürtülməsi səhnəsinə baxdıqdan sonr uşaqlarda başqasına qarşı aqressivlik yaranırrmı və nə dərəcədə. |
| age | Pearson Correlation | .639** | .632** | -.711** | -.718** |
| | Sig. (2-tailed) | <.001 | <.001 | <.001 | <.001 |
| | N | 40 | 40 | 40 | 40 |

Yaş və qorxu arasındaki korrelasiya əlaqəsinə baxdıqda, görürük ki, əlaqə mınfidir, yəni yaş artıqda qorxu azaldığı müşahidə edilir. Bu təşviş, təqlid və aqressivlikdə də eynilik təşkil edir.

Yaşla qavrama arasındakı korrelasiya əlaqə isə müsbətdir. Bu da bizə bunu söyləməyə imkan verir ki, qavrama yaş artdıqca artır. Aralarındakı əlaqə müsbətdir.

# NƏTİCƏ

Araşdırmalar nəticəsində grülmüşdür ki cizgi filmlərin təsir formaları həm müsbət həm də mənfi ola bilər. Bu təsirlərin səviyyəsi aildən, xarici təsirlərdən, seçilən cizgi filmin sujet xəttindən və personajın xarakter keyfiyyətindən asılıdır.

Bu tədqiqat nəticəsində cizgi filmlərindəki ideya və motivlərin uşaqlara təsirini və qavranılması müəyyən edilmişdir. Valideynlərlə sorğuda uşaqların daha çox mənfi təsir altında qaldıqlarını bildirdilər. Onların emosionallıq səviyyəsi və davranışında böyük dəyişikliklər baş verir. Uşaqlarda aqressivlik, təşfiş, davranış pozundusu, təqlid elementləri aşkarlanmışdır. SPSS-in nəticəsinə görə uşaqlarda davranış və emosonal  cəhətdən daha çox aqressiv olduqları müşahidə edilmişdir.

Valideynlər uşaqların inkişafı üçün daha mariflandirici, əxlaq normalarına uyğun, öyrədici, yeni idealları olan cizgi filmlərinə baxmaqlarını istəyirlər, lakin çox vaxt valideynlərin istəkləri ilə uşaqların istəkləri üst-üstə düşmür.

Nəticələrdən önə çıxan əsas nüas odur ki, uşaqlar cizgi filmin motiv və ideyalarını düzgün formada qavramaqlarıma baxmayaraq, onlara təsiri neqativ ola bilir. Yəni cizgi filmlərinin düzgün qavranılması onların zərərli təsirlərindən qorumur.

Tədqiqat zamanı grülmüşdür ki, cizgi filmlərin yaratdığı qorxu və təşviş, təqlid, aqressivlik və qavramanın  cinslə əlaqəsi güclü deyil, lakin yaşla əlaqəsi olduqca güclüdür.

Yaş artdıqca qorxu, təşviş, aqressivlik, təqlidin səviyyəsi azalıt, qavrama səviyyəsi isə yüksəlir.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

1. Ağamalıyev R (2019) II animafilm Bakı beynalxalq animasiya festivalı 4-84

2. Azərbaycan Milli Kitabxanası. Əlamətdar və tarixi günlər təqvimi. Bakı, 2021, səh.10-562

3. Cabbarova L. (2016). Medyanın erken çocukluk döneminde gelişime olan etkisi. Uluslararası Erken Çocukluk Eğitimi Kongresi. İstanbul, Bildiri kitabı, 18-20 mart 2016, s. 850-860.

4. Dadaşzadə A. XVIII əsr Azərbaycan lirikası. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, məqalələr. "Təhsil", səh.17-424

5. Aslan Ş. Hayat bilgisi öğretimində çizgi film və animasyon kullanımına ilişkin öğretmen görüşləri: Yüksek Lisans Tezi, 2020, s.20-34

6. Aydın B. Türkiye'de çocuk televizyon kanallarındaki çizgi filmlerin çocukluğa etkisi üzerine bir içerik analizi: Balıkesir Üniversitesi Sosyal Bilimler Enstitüsü, 2018, s.16-34

7. Bilginoğlu E., Artan İ.E. Masallar ve çizgi filmlerde güç elde etme stratejileri // Üçüncü Sektör Sosyal Ekonomi Dergisi, 54(4), 2019, s.1726-1745. 10.15659/3.sektor-sosyal-ekonomi.19.12.1203

8. Cebeci S., Demir R. Çizgi filmler çocuklara neyi vaat ediyor? // Diyanet İlmi Dergi, 54(1), 2018, s.139-170

9. Çolak A. Popüler kültür bağlamında çizgi filmlerin kültür aktarımındaki yeri: İstanbul muhafızları incelemesi: T.C.İstanbul Aydın Üniversitesi Sosyal Bilimleri Enstitüsü, 2019, s.25-72

10. İşleyen, M. 2020. Çocuk, televizyon ve cinsellik: çizgi filmler üzerine bir inceleme. Gümüşhant Üniversitesi İletişim Fakültesi Elektronik Dergisi 8(1) 442-477

11. Kara O. Çizgi filmlerin çocukların karakter eğitimine etkisi: Yüksek lisans tezi, Giresun üniversitesi, 2019, s.60-68

12. Koçak Ö., Göktaş Y. Ebeveynlerin çizgi filmlere yönelik bakış açılarının ve görüşlerinin incelenmesi // Erken Çocukluk Çalışmaları Dergisi 4(1), 2020, s.52-73

13. Parlakyıldız I. 5-6 yaş çocuklarının izlediği çizgi filmlerin gerçeklik durumlarının incelenmesi: Fatih Sultan Mehmet Vakif Üniversitesi Lisansüstü eğitim Enstitüsü Temel Eğitim Anabilim Dalı Okul Öncesi Eğitim Programı, 2019, s.4-127

14. Sarman A., Sarman E. Çizgi film ve fantastik animasyonlardaki karakterlerinin bağımlılık kapsamında analizi ve çocular üzerindeki etkisi // Bağımlılık Dergisi, 23(2), 2022, s.216-220.

15. Şeşen E., Ertürk K.Ö. Çizgi filmlərdeki şiddət içeriğinin çocuklar üzerindeki etkisi: ZfWT 10(3), 2018, s.232-246

16. Ürtekin Ö. Geçmişten günümüze animasyon filmlerinde mekan kullanım analizi: Işık Üniversitesi, 2018, s.45-65

17. Üstündağ A Şenol FB Çizgi Filmlerde Yer Alan Şiddet Ve Korku Öğelerinin İncelenmesi: TRT Çocuk Örneği Gümüşhane Üniversitesi Sosyal Bilimler Enstitüsü Elektronik Dergisi 12 (1), 173-188, 2021

18. Yetim G., Sarıçam H. (2016). Çizgi film programlarının çocuklara etkisi konusunda ailelerin bilgi ve farkındalık düzeylerinin incelenmesi // OPUS Uluslararası Toplum Araştırmaları Dergisi, 6(6), 2016, s.1-24

19. Васягина И., Зорина С. Влияние мультфильмов на эмоциональное состояние детей 10-11 лет Психология в современном мире: сборник статей международной научио - практической конференции, 2017, с.207-210

20. Амеликова А.В. Влияние современных мультфильмов на психику ребёнка // Нравственные импеативы в праве, образовании, науке и культуре, 2019, с.31-33

21. Богомолова Е. Влияние современных мультфильмов на психику детей младшего школьного возраста. Актуальные вопросы современной науки и образования, 2020, с.108-110

22. Бурова Н., Пишкун Е. Роль мультфильмов в жизни современных детей. // Преемственность в образовании, 17(04), 2018, с.148-152
23. Васильев И.С. Положительное и отрицательное влияние отечественных и зарубежных мультфильмов на психику детей подросткового возраста // Молодой ученый, 12(116), 2016, с.761-764
24. Викторовна Г.О. Влияние мультфильмов на проявление агрессивности в дошкольном возрасте. Поиск (Волгоград), 1(8), 2018, с.85-87
25. Волошина Н. Совместная игровая деятельность родителей и детей как средство развития эмоционального интеллекта в дошкольном возрасте // Кафедра психологии образования, 2019, с.10-120
26. Газиева Я.З., Межидова М.А. Влияние мультфильмов на развитие детей предшкольного возраста. Шаг в науку, 2020, с.78-91
27. Глаз А.С., Акмухаметова Н.В., Позднякова, Е.В. Современные мультфильмы для детей: средство воспитания или технологии манипулирования?, 2019, с.5-12
28. Голубева Ю.В., Зайцева М.В. Особенности восприятия мультипликационного фильма детьми дошкольного возраста // Мир детства в современном образовательном пространстве, 2020, с.49-50
29. Голубь и Ермилина 2018 Влияние мультфильмов на проявление агрессивности в дошкольном возрасте. Поиск (Волгоград) 1(8) 85-87
30. Грозина, В.А. Влияние современных мультфильмов и видеоигр на развитие и психологическое здоровье ребенка. Наука, общество,личность: проблемы и перспективы взаимодействия в современном мире, 2021, с.81-85
31. Декман И.Е., Старкова А. А. (2021) Современная мультипликация как средство воспитания детей дошкольного возраста // Мир педагогики и психологии: международный научно-практический журнал, 09 (62), 2021, с.71-79

32. Ермилина А. С., Озарина А.А. Влияние мультфильмов на проявление агрессивности и тревожности в дошкольном возрасте. Психология XXI века: психология как наука, искусство и призвание, 2018, с.24-29
33. Казначеева, Е. Методические рекомендации использования мультфильмов для формирования личности младщего школьника. 2020, с.158-161
34. Клюкина Е. Влияние современных мультфильмов на сознание детей // Самарский Государственный Экономический Университет, 49(3), 2019, с. 86-90 doi: 10.18411/lj-04-2019-64
35. Козлова М., и Деркунская И. Влияние мультфильмов на формирование нравственных идеалов дошкольников. Образовательный Альманах, 9(11), 2018, с.31-33.
36. Косыгина А.Н. Борисовна К.Л. История анимации. Стоп-моушен. Съемка в домашних условиях. 3-42.(prezentasiya), 2021
37. Лаврикова Е. Особенности влияния современных мультфильмов на поведение и психику детей // Лучшая студенческая статья 2021, с.186-189
38. Левашова Е.А. Из истории анимации и мультимедиа // Преподаватель XXI век, 2019, с.151-158
39. Матвеева Л.В., Аникеева Т.Я., Мочалова Ю.В., Макалатия А.Г. Восприятие детьми дошкольного и младшего школьного возраста образов героев отечественных и зарубежных мультфильмов. Вестник Московского университета. Серия 14. Психология, 2019, с.105-123
40. Мир Багирзаде Ф. 2020 Литературные произведения в азербайджанской анимации : символика и семантика. Наследие Альманах « ЭТНОДИАЛОГИ » 33 ( 61 ) 2020 157-170
41. Мир-Багирзаде, Ф.А. У истоков Азербайджанской анимации- шеола Аганаги Ахундова. Международное сотрудничество // Историко-культурное наследие народоа Урало-Поволжья, 1(6), 2019, с.134-139

42. Москвина Е.Б., Петрова А.С. Пахомов М.А., Морозов А.М. Влияние просмотра мультфильмов на здоровье ребенка, Forcipe Том 2, 2019 с.101-102
43. Мультфильмы для детей: польза или вред? Барнаул Консультация для родителей, 2021, с.1-4
44. Муртазина М.А. Исследование предпочтений мультфильмов в младшем школьном возрасте, 2017, с.20-55.
45. Темирканова Д.С., Тухужева Л.А. Бегиева Б.М. (Особенности познавательного развития детей раннего возраста, 2018, с.99-100.
46. Allison Smıth B. Three Lessons from Zootopia to Discuss with Kids: Greatergood, 2016 https://greatergood.berkeley.edu/article/item/three_lessons_from_zootopia_to_discuss_with_kids
47. Anwaar H A, Sayeda A A, Mawaheb M Z, Hend A M (2021) Relationship between Cartoon Violence and Aggressive Behavior among Primary School Children.Journal of Nursing Science Benha University 2 (2), 459-470.
48. Aponte G. Etymation : the history of spelling via animations: Bank Street College of Education? 2013 https://educate.bankstreet.edu/cgi/viewcontent.cgi?article=1082&context=independent-studies
49. Appelgate A. Nickelodeon: 5 ways '90s cartoons were the best (& 5 Modern Cartoons Are), 2021 https://www.cbr.com/nickeloden-best-modern-and-90s-cartoons/
50. Bagwan T. The fascinating history behind cartoons. Htschool, 2021 https://htschool.hindustantimes.com/editorsdesk/knowledge-vine/the-fascinating-history-behind-cartoons/
51. Batool S.B., Siddique R. S., Cheema B.A. Perceived effects of cartoons on the behavior of students with and without hearing loss: Pakistani parents' perspective

on preference for cartoons as a safe entertainment. Elementary Education Online 20 (5), 2021, p.7472-7481. doi: 10.17051/ilkonline.2021.05.847

52. Beaino T. The effects of cartoons on Lebanese children aged between 3 and 10 // Notre Dame University- Louaise, 2021, p.3-15.

53. CatalanO M. Explained: Is Zootopia a good allegory for racism? // MovieWeb, 2022 https://movieweb.com/zootopia-racism/

54. Choriyeva F.A. Causes and factors of adverse changes in pre-school child behavior // Progressive Academic Publishing, 8(4), 2020, p.43-45.

55. Cirkovic I. Cartoons and Their Influence. Novakdjo kovic foundation site, 2014 https://novakdjokovicfoundation.org/cartoons-and-their-influence/

56. Ghose K., Gupta V. The history of Indian animation (1912-1961)-Part 1. // GJRA – Global Journal For Research analysis, 7(2), 2018, p.37-38

57. Habib K., Soliman T. Cartoons' Effect in Changing Children Mental Response and Behavior // Open Journal of Social Sciences 3(09), 2015, ID:59815, p.16

58. Hronec J. Final season of 'Bojack Horseman' ends with a simple message: life goes on. The Global, 2020 https://ppuglobe.com/2020/02/final-season-of-bojack-horseman-ends-with-a-simple-message-life-goes-on/

https://www.vox.com/2014/8/1/5957813/gravity-falls-alex-hirsch-disney-channel-interview

59. James E. "Adventure Time has become this era's finest coming-of-age story". Vox, 2015 https://www.vox.com/culture/2015/11/22/9779088/adventure-time-stakes-review

60. James E. "Disney's Gravity Falls is one of the best kids shows on TV. Here's how it got that way". Vox, 2014

61. Liu K., Chen J., Chang K. A study of facial features of American and Japanese cartoon characters: Symmetry, 11(5), 2019, p.664

62. Lulciuc C., Maricutoiu L., Minulescu M. Looking for the positive effekts of cartoons on children's intentional prosocial behavior. Still no evidence //

International Journal of Education and Psychology in the Community 10 (1/2), 2020, p.59-80

63. Mahmood T., İftikhar U., Bhatti M.A. Journal of Business and Sosial Revie in Emerging Economies 6(2), 2020, p.689-702

64. Miller C. Is spongebob really bad for preschoolers : Child mind institute, 2020 https://childmind.org/article/is-spongebob-really-bad-for-preschoolers/

65. Mitrovic P. Psychologists determined that the cartoon “Masha and The Bear” has a Harmful Effect on Children // OppTrend, 2019 https://www.opptrends.com/psychologists-determined-that-the-cartoon-masha-and-the-bear-has-a-harmful-effect-on-children/

66. Moreno L. The creation process of 2D animated movies. 2014, p.4-19

67. Mufson B. Fans Think This New 'Rick and Morty' Promo Might Hold a Secret Message. Vice, 2018 https://www.vice.com/en/article/pavw3v/fans-think-this-new-rick-and-morty-promo-might-hold-a-secret-message-vgtrn

68. Olasinde E. Influence of cartoons on the socialisation of pupils of two primary schools in Ibadan // Jornal of Communication and Media Research, Nigeria. 10(1), 2018, p.150-158.

69. Perween S., Hasan S.H. The impact of cartoons on toddlers’ language acquisition // Strength for Today and Bright Hope for Tomorrow 20, 20(2), 2020, p.113-120

70. Ramesh A. Effect of violent cartoons on children's behavior and mental state. The Medindia Medical Review Team on, 2021 https://www.medindia.net/patients/lifestyleandwellness/effect-of-violent-cartoons-on-childrens-behavior-and-mental-state.htm#what-is-the-role-of-media-in-childrens-lives

71. Rostyslav P. Cartoon styles of the modern and old animation era, 2021 https://darvideo.tv/blog/cartoon-styles-of-the-modern-and-old-animation-era/

72. Sammy M. The 7 best modern cartoons, 2017 https://www.creativebloq.com/animation/10-best-modern-cartoons-8133920

73. Sfetcu N. Animation & Cartoons. 2021, p.1-61
74. Shanthipriya P., Prabha A.A. A study on parent's perception towards children viewing cartoon channels // Journal of Applied and Advanced Research, 2(1), 2021, p.31-36 doi.: 10.21839/jaar. 2017.v2i1.48
75. Sherlock B. Bob's Burgers: 10 reasons it's the best animated show on the air, 2019https://screenrant.com/bobs-burgers-reasons-best-animated-show/#:~:text=Bob's%20Burgers%20is%20not%20only,best%20animated%20show%20on%20television.&text=Although%20it%20stumbled%20in%20its,TV%20comedies%20on%20the%20air
76. Singh A. The effect of cartoon on children // AJHS Asian Journal of Home Science, 11(2), 2016, p.400-403 DOI: 10.15740/HAS/AJHS/11.2/400-403
77. Staff "5 things you can learn from watching SpongeBob SquarePants". Cultbizztech, 2018 https://cultbizztech.com/watching-spongebob-squarepants/
78. Tatev D. The influence of cartoons on children's socialization, 2019 https://enlightngo.org/language/en/post/7795
79. Torres R. What 'BoJack Horseman' Taught Us About Forgiveness. Collider, 2021 https://collider.com/bojack-horseman-forgiveness/
80. Uzerfriendly. 3 Reasons Why the Amazing World of Gumball Could Change The World, 2014 https://uzerfriendly.com/3-reasons-why-the-amazing-world-of-gumball-could-change-the-world/
81. Wijethilaka T. Effect of cartoons on children // Jurnal Ilmiah, 2020, p.2-8